# VATİKAN VƏ AĞ EV ARASINDA GƏRGİNLİK

Donald Trampın qarşıdurma yaşadığı qurumlar sırasına Papalıq da daxil olub. Liderlər arasında gərginlik Yaxın Şərqdə hərbi əməliyyatlarla daha da artıb.

Qarşıdurma Papanın ABŞ-nin İrana qarşı müharibə planlarını və hərbi ritorikasını tənqid etməsi ilə başlayıb. Tramp isə buna cavab olaraq Papanın müharibənin mahiyyətini anlamadığını və cinayətkarlıqla mübarizədə "zəif" olduğunu deyib. Tramp iddia edib ki, Papa ona "minnətdar" olmalıdır, çünki məhz ABŞ-nin təsiri ilə pontifik seçilib.

SƏHİFƏ 5-də



'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

25 APREL ŞƏNBƏ 2026 № 15 (4266) Qiyməti - 60 qəpik www.kaspi.az





## "SÜLH GÖYƏRÇİNLƏRİ"NİN İKİÜZLÜ SİYASƏTİ

Cənubi Qafqazda xaos və gərginliyin olmasında maraqlı olan qüvvələr regiondakı prosesləri özlərinin istədikləri axara yönəltməyə səy göstərirlər. Bu yolda şər və böhtan atmaqdan da çəkinmirlər.

SƏHİFƏ 4-də




## ELEKTRON TİCARƏTDƏ YENİ QAYDA

2026-cı ilin iyunundan etibarən elektron ticarət bəyannamələrinin FİN və parol vasitəsilə təqdim edilməsi dayandırılır. Əsas səbəblər kimi kibertəhlükəsizlik riskləri, hüquqi məsuliyyət mexanizminin gücləndirilməsi göstərilir.

SƏHİFƏ 14-də



## "QIRMIZI QIZIL"IN ƏKİN XƏRİTƏSİ DƏYİŞİR

Tarixən Azərbaycanda zəfəranın əsas ünvanı Bakı və Abşeron yarımadası sayılıb. Abşeron zəfəranı keyfiyyəti, ətri və rəngi ilə seçilib. Lakin rəsmi statistik rəqəmlərin təhlili göstərir ki, zəfəran xəritəmiz dəyişməkdədir.

SƏHİFƏ 15-də

## BALTİKYANI ÖLKƏLƏRLƏ ƏLAQƏLƏR GENİŞLƏNDİRİLİR



# BAKI-RİQA XƏTTİNDƏ YENİ MƏRHƏLƏ

Latviya Prezidenti Edqars Rinkeviçs Azərbaycana səfəri çərçivəsində Prezident İlham Əliyevlə görüşüb. Görüşdən sonra dövlətlər arasında əməkdaşlığın genişləndirilməsini nəzərdə tutan sənədlər imzalanıb.

### ƏMƏKDAŞLIQ ÜÇÜN GÜCLÜ ÇƏRÇİVƏ

Latviya və Azərbaycan arasında münasibətlərin mövcud durumu və gələcək perspektivlərin konturları dövlət başçılarının mətbuata birgə bəyanatında açıqlanıb. Prezident İlham Əliyev bildirib ki, Latviya ilə əməkdaşlığımızın çox güclü çərçivəsi var.

### VİZASIZ REJİMİN TƏTBİQ EDİLMƏSİ

Prezident Edqars Rinkeviçs isə bəyan edib ki, Azərbaycanla Aİ arasında əməkdaşlıqda müsbət addımların atıldığı müşahidə olunur: "Biz bir məxsusi məsələni müzakirə etdik və mən bu məsələdə bizim tam dəstəyimizi vurğulamaq istəyirəm. Bu məsələ vizasız rejimin tətbiq edilməsidir".

SƏHİFƏ 3-də

"Rədd cavablarının artma ehtimalı var"

## ŞENGEN ZONASINA GİRİŞ DAHA DA SƏRTLƏŞƏCƏK



"Avropa ölkələrinə səyahət üçün qaydalar sərtləşir", "Şengen ölkələrinə giriş çətinləşəcək"... Son zamanlar sosial şəbəkələrdə bu tip narahatlıqlar müşahidə edilməkdədir. Yeni qaydalara əsasən, Avropa İttifaqına daxil olan və ittifaq üzvü olmayan ölkələrin vətəndaşları üçün sərhəd prosedurlarında edilən ciddi dəyişikliklər müəyyən narahatlıqlara əsas verib. Turizmçi Günel Şıxıyeva ilə müsahibəmizdə mövzu ilə bağlı yaranan suallara aydınlıq gətirməyə çalışdıq.

SƏHİFƏ 9-da



## ERMƏNİSTANDA MƏHV EDİLƏN MADDİ-MƏNƏVİ İRSİMİZ

Qərbi Azərbaycanda 734 qəbiristanlıq üzrə monitorinq aparılıb. Onlardan 201-i üzrə faktlar sənədləşdirilib. 12 qəbiristanlığın üzərindən yollar çəkilib, 16-sının yerində yaşayış evləri tikilib, 56-sı əkin sahəsinə çevrilib.

SƏHİFƏ 2-də



## DAŞINMAZ ƏMLAK SIĞORTASINDA YENİ MƏRHƏLƏ

Daşınmaz əmlakın icbari sığortası üzrə yeni yanaşma tətbiq olunur. Əsas hədəf katastrofik riskləri daha düzgün qiymətləndirmək və bədbəxt hadisələr zamanı vətəndaşlara daha adekvat sığorta ödənişlərini təmin etməkdir.

SƏHİFƏ 8-də




## XİLASEDİCİ TƏŞƏBBÜS, YOXSA RİSKLİ QƏRAR?

Nikahdan əvvəl tərəflərdən narkoloji arayışın tələb edilməsi təklifi birmənalı qarşılanmır. Təşəbbüs ilk baxışdan xilasedici görünsə də, mütəxəssislər qaydanın tətbiqi zamanı yaranacaq problemlər barədə də xəbərdarlıq edirlər.

SƏHİFƏ 7-də



İmtahan sualları niyə çaşdırır?

SƏHİFƏ 11-də



SOCAR və "BGP Inc." əməkdaşlığı genişləndirir

SƏHİFƏ 10-da



Rəflərdə qalan yerli şirələr

SƏHİFƏ 13-də



Cərimə, həbs və sosial tədbirlər

SƏHİFƏ 12-də



Bir gümüş, üç bürünc

SƏHİFƏ 16-da



## Sərəncam iki minə yaxın şəxsə şamil olunacaq

Prezident İlham Əliyevin İkinci Dünya müharibəsi iştirakçılarına maddi yardımla bağlı sərəncamının 2 minə yaxın şəxsə şamil olunacağı gözlənilir ki, onlardan 13-ü İkinci Dünya müharibəsi iştirakçısıdır. Bu barədə "Report"a Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən (ƏƏSMN) məlumat verilib. Bildirilib ki, sərəncama əsasən, İkinci Dünya müharibəsində Qələbənin 81-ci ildönümü ilə əlaqədar həmin müharibənin iştirakçılarına 2750 manat birdəfəlik maddi yardım ödəniləcək. İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına isə 1500 manat məbləğində birdəfəlik maddi yardım veriləcək.



## XİN Ermənistanda Türkiyə bayrağının yandırılmasını pisləyib

Azərbaycan Xarici İşlər Nazirliyi (XİN) Ermənistanda Türkiyə bayrağının yandırılmasını pisləyib. "Report" xəbər verir ki, bu barədə XİN bəyanat yayıb. Bəyanatda qeyd olunub ki, Ermənistanın paytaxtı İrəvan şəhərində "məşəl yürüşü" zamanı Türkiyə bayrağının yandırılması Azərbaycan XİN tərəfindən qətiyyətlə pislənilir. "Ermənistan hökuməti etnik zəmində kök salmış nifrətin təcəssümü olan bu kimi kampaniyanın qarşısını vaxtında almalı və müvafiq təhlükəsizlik tədbirləri görməli idi. Bu kimi qəbuledilməz aktlara demokratik normalar, sərbəst toplaşmaq və fikir azadlıqları əsas gətirilərək göz yumulması tamamilə qəbuledilməzdir. Ermənistanda hələ də güclü şəkildə revanşist və etnik nifrətə əsaslanan faşist düşüncənin açıq təzahürü olan bu kimi aktlar beynəlxalq səviyyədə pislənməli və qarşısı alınmalıdır. Ermənistan hökumətini bu hərəkətləri törətmiş şəxsləri məsuliyyətə cəlb etməyə çağırırıq", - bəyanatda qeyd olunub.

# ERMƏNİSTANDA MƏHV EDİLƏN MADDİ-MƏNƏVİ İRSİMİZ

**Qərbi Azərbaycan ərazisində 734 qəbiristanlıq üzrə monitorinq aparılıb. Məlum olub ki, 12 qəbiristanlığın üzərindən yollar çəkilib, 16-sının yerində yaşayış evləri tikilib, 56-sı əkin sahəsinə çevrilib, 6-sı dəyişdirilərək erməni qəbiristanlığı kimi istifadə olunur, 67-si vandalizmə məruz qalıb.**



Azərbaycan işğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq prosesini uğurla davam etdirir. Separatçı rejimin, Ermənistanın işğalçı ordusunun maddi-mədəni irsimizi məhv etmək siyasətinin nəticələrini aradan qaldırır. Bu ərazilərin əsl milli kimliyini özünə qaytarır. Bu proses ölkəmizə qarşı əsası olmayan, həqiqətdən uzaq ittihamların səsləndirilməsinə rəvac verib. Lakin bu ittihamları səsləndirənlərin unutduqları bir mühüm məqam da var. Azərbaycan xalqının maddi-mədəni irsinə qarşı vandalizm aktları tək vaxtilə işğal edilmiş ərazilərdə yox, həm də indiki Ermənistan ərazisində həyata keçirilib. Xalqımızın milli kimlik yaddaşını əks etdirən minlərlə abidəmiz, mədəni irs nümunələri uzun illər ərzində Ermənistanın birbaşa dövlət siyasəti nəticəsində məhv edilib.

### "SÖHBƏT 10 MİN KV/KM ƏRAZİDƏN GEDİR"

Milli Məclisin deputatı Ceyhun Məmmədov "Report"a açıqlamasında bildirib ki, Azərbaycanın işğal olunmuş əraziləri, oradakı tarixi-mədəni abidələr dünyada misli görülməmiş vandalizm və vəhşilik aktlarına məruz qalıb, həmçinin indiki Ermənistan ərazilərindəki azərbaycanlı irsi də dağıdılıb, məhv edilib.

Deputat qeyd edib ki, dini, tarixi, mədəni abidələrə qarşı törədilən aktları Prezident İlham Əliyev də dəfələrlə diqqətə çatdırıb: "Füzuli rayonu işğaldan azad olunanda Azərbaycan ordusu burada bayraq asmağa dağıdılmamış, minasız bir yer belə tapa bilməyib. Ağdam və Füzulidə mədəniyyət ocaqları, məscidlər, kilsələr vəhşicəsinə dağıntılara məruz qalıb. Söhbət 10 min kv/km ərazidən gedir, hansı ki, bu ərazilər vaxtilə ən abad zonalar idi. Hər rayonda, hər şəhərdə muzeylər, xəstəxanalar, dövlət qurumlarının binaları vardı, bunların hamısı dağıdılıb. Vəhşiliyin miqyası həddindən artıq çox idi, bu gün yenidən baxdıqda Azərbaycan xalqına nə qədər böyük ziyan vurulduğunu bir daha anlayırıq".



### "QƏBİRLƏRƏ QARŞI DA BÖYÜK VƏHŞİLİKLƏR TÖRƏDİLİB"

C. Məmmədov vurğulayıb ki, qəbirlərə qarşı da böyük vəhşiliklər törədilib, məzarlar dağıdılıb, məzar daşları ermənilər tərəfindən götürülüb, hətta başqa ölkələrə daşınıb: "Ermənilər azərbaycanlıların dəfn edildiyi qəbiristanlıqlardakı məzar daşlarını satıblar. Bir sıra hallarda isə onlardan başqa məqsədlər üçün istifadə olunub. Azərbaycan bütün bu vəhşilikləri dünyaya çatdırmağa çalışır və ciddi işlər görür. Davamlı olaraq, beynəlxalq tribunalarda bu faktlar səsləndirilir, dünyanın gündəmində qalmasına çalışılır, rəsmilərin görüşlərində, müzakirələrində xüsusi vurğulanır.

Hesab edirəm ki, biz sülhə doğru irəliləsək də, Prezident İlham Əliyevin həmişə dediyi kimi keçmişi unutmamalıyıq. Bunun üçün davamlı təbliğat aparmalı, filmlər çəkilməli, vandalizm aktlarını, mina problemini sənədləşdirməliyik. Beynəlxalq platformalarda bu həqiqətlər dünya ictimaiyyətinə çatdırılmalıdır. Beynəlxalq ictimaiyyət isə bu məsələlərə laqeyd və biganə olmamalıdır".

### "RİYAKARLIQDAN BAŞQA BİR ŞEY DEYİL"

Deputat, Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri Əziz Ələkbərli isə Oxu.Az-a açıqlamasında deyib ki, ermənilərin işğaldan azad edilmiş ərazilərdə guya "erməni irsinin dağıdılması" barədə yaydıqları ənənəvi iddiaların özü bir daha bu yanaşmanın əsassız olduğunu göstərir. Çünki söhbət 30 il işğal altında saxlanılan, bir milyona yaxın azərbaycanlının öz doğma yurdundan didərgin salındığı Azərbaycan ərazilərindən gedir.

O bildirib ki, işğal dövründə həmin Azərbaycan ərazilərində kənd və şəhərlər tamamilə dağıdılıb, yaşayış evləri sökülüb, məscidlər məhv edilib, məzarlıqlar təhqir olunub, qəbirlər qazılaraq insan qalıqları ətrafa səpələnib.

Ə.Ələkbərli əlavə edib ki, son iki əsr ərzində Azərbaycan xalqı dəfələrlə deportasiyalara və zorakılıqlara məruz qalıb: "Bu proseslər təkcə insanlara qarşı deyil, həm də mədəni irsə, tarixə, toponimlərə və milli dəyərlərə qarşı yönəlib. Qərbi Azərbaycan ərazisində 734 qəbiristanlıq üzrə monitorinq aparmışıq. Onlardan 201-i üzrə faktlar sənədləşdirilib. Məlum olub ki, 12 qəbiristanlığın üzərindən yollar çəkilib, 16-sının yerində yaşayış evləri tikilib, 56-sı əkin sahəsinə çevrilib, 6-sı dəyişdirilərək erməni qəbiristanlığı kimi istifadə olunur, 67-si vandalizmə məruz qalıb, digərlərində isə müxtəlif tikinti və təsərrüfat işləri aparılıb".



# BAKI–RİQA XƏTTİNDƏ YENİ MƏRHƏLƏ

**Latviya Prezidenti Edqars Rinkeviçs Azərbaycana səfəri çərçivəsində Prezident İlham Əliyevlə görüşüb. Görüşdən sonra dövlətlər arasında əməkdaşlığın genişləndirilməsini nəzərdə tutan sənədlər imzalanıb.**



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Azərbaycanın Avropa İttifaqına üzv dövlətlərlə ikitərəfli əlaqələri genişləndirilir. Xüsusilə də Baltikyanı ölkələrlə qarşılıqlı münasibətlərdə dinamika hiss edilir. Bir müddət əvvəl Litvanın Baş naziri İnqa Ruqinieneni qarşılayan paytaxt Bakı bu həftə Latviya Prezidenti Edqars Rinkeviçsi qonaq edib.

Səfər çərçivəsində Latviya Prezidentinin azərbaycanlı həmkarı İlham Əliyevlə öncə təkbətək, daha sonra isə geniş tərkibdə görüşü keçirilib. Daha sonra tərəflər arasında sənədlərin mübadiləsi reallaşıb.

### "ƏMƏKDAŞLIĞIMIZIN ÇOX GÜCLÜ ÇƏRÇİVƏSİ VAR"

Latviya və Azərbaycan arasında münasibətlərin mövcud durumu və gələcək perspektivlərin konturları dövlət başçılarının mətbuata birgə bəyanatında açıqlanıb.

Prezident İlham Əliyev bildirib ki, Latviya ilə əməkdaşlığımızın çox güclü çərçivəsi var: "Doqquz il əvvəl ölkələrimiz arasında imzalanmış Strateji Tərəfdaşlıq haqqında Bəyannamə hüquqi çərçivəni yaradır və münasibətlərimizi ən yüksək səviyyəyə qaldırır. Biz elə bunun əsasında tərəfdaşlığı müxtəlif sahələrdə inkişaf etdirmək üçün sıx çalışmışıq".

Müzakirələrdən sonra tərəflər arasında mühüm razılaşmalar da əldə edilib. Onların arasında birbaşa uçuşlarla bağlı məqam xüsusi diqqət çəkir. Prezident İlham Əliyev deyib: "Bu, xüsusən də müəyyən pozulmalar, həmçinin bəzi hava şirkətləri üçün aviayanacağın müəyyən dərəcədə çatışmaması ilə səciyyələnən indiki dövrə təsadüf edir və xoşbəxtlikdən Azərbaycanın hava şirkəti bundan əziyyət çəkmir. Bu, digər bir fürsət ola bilər".



Dövlət başçısı latviyalı həmkarını bölgədəki sülh prosesi barədə də məlumatlandırıb. Prezident İlham Əliyev Vaşinqton razılaşmalarının əhəmiyyətinə toxunub. Bildirib ki, həmin vaxtdan etibarən sülh prosesində xeyli müsbət dinamika yaşanıb: "Bu nümunə göstərir ki, məhz siyasi iradə və siyasi müdriklik, o cümlədən gələcəyə strateji baxışlar hadisələri təyin edir: Siz ya sonsuz müharibəni və ya müharibələri davam etdirirsiniz, yaxud beynəlxalq hüquq əsasında istədiyinizə nail olduqda birdəfəlik dayanırsınız və sülhə hazır olduğunuzu nümayiş etdirirsiniz. Düşünürəm ki, həmin nümunə hələ də müharibədə olan ölkələr üçün vacib ola bilər".

## AZƏRBAYCAN VƏ Aİ ARASINDA VİZASIZ REJİMİN TƏTBİQİ

Latviya Prezidenti Edqars Rinkeviçs isə bəyan edib ki, Azərbaycanla Avropa İttifaqı arasında əməkdaşlıq sahəsində müsbət addımların atıldığı müşahidə olunur: "Biz bir məxsusi məsələni müzakirə etdik və mən bu məsələdə bizim tam dəstəyimizi vurğulamaq istəyirəm. Bu məsələ vizasız rejimin tətbiq edilməsidir, çünki biz çoxlu məsələləri müzakirə edə bilirik və biz bağlantı, daşımalar, birbaşa uçuşlarla bağlı bu qənaətə gəldik. Lakin Azərbaycan vətəndaşlarının Avropa İttifaqına və Avropa vətəndaşlarının sizin gözəl ölkənizə sərbəst çıxışı vacibdir. Çünki təkcə nəinki şirkətlər üçün, həmçinin xalqlararası təmaslar və turizm üçün böyük potensial mövcuddur.

Əlbəttə ki, biz Azərbaycanın xüsusilə Trans-Xəzər nəqliyyat dəhlizində, həmçinin energetika sahəsində rolunu həm Latviya, həm də ümumilikdə Avropa İttifaqı üçün strateji bir dəyər kimi görürük".

Edqars Rinkeviçs Azərbaycanın Ukraynaya humanitar yardımını yüksək dəyərləndirdiklərini qeyd edib: "Regional məsələlərə gəldikdə, Azərbaycanın səsini eşitmək və müdrikliyini görmək olduqca vacibdir".

## "MALİYYƏ SİSTEMİMİZ SABİTDİR"

Səfər çərçivəsində ikitərəfli iqtisadi münasibətlərin inkişafı da əsas diqqət yetirilən məqamlardan biri olub. Biznes-forumun keçirilməsi və tədbirdə dövlət başçılarının iştirakı bu məsələdə ortaya qoyulan iradənin göstəricisidir.

Tədbirdə çıxış edən Prezident İlham Əliyev qeyd edib ki, istənilən biznes fəaliyyətinin arxasında bir neçə amil dayanır - ilk növbədə biznes qurduğunuz ölkədəki sabitlik, proqnozlaşdırılma imkanı, biznes və investisiya mühiti, həmçinin bağlantılar, ixrac bazarlarına çıxış imkanları və daxili bazarın həcmi kimi bir çox digər amillər: "İstər yerli, istərsə də xarici investorlar üçün maliyyə sabitliyi mühüm əhəmiyyət kəsb edir. Bu sahədə də yaxşı nailiyyətlər haqqında danışa bilərik. Maliyyə sistemimiz sabitdir. Biz strateji plana əsaslanaraq borclanmadan asılılığımızı tədricən azaltdıq".

Dövlət başçısı qeyd edib ki, son iyirmi il ərzində iqtisadiyyatımıza 350 milyard ABŞ dollarından çox investisiya qoyulub ki, bunun da təqribən yarısı – 170 milyard ABŞ dolları xarici mənbələrdən gələn investisiyalardır: "Beləliklə, investisiya üçün əlverişli mühitin yaradılması qarşımızda duran hədəflərdən biri idi və buna böyük mənada nail olunub".

### LATVİYA ÜÇÜN BÖLGƏDƏ ƏN MÜHÜM TƏRƏFDAŞ

Latviya Prezidenti Edqars Rinkeviçs isə bildirib ki, ölkəsi Azərbaycanla əməkdaşlığa, ticari əlaqələrini dərinləşdirməyə və genişləndirməyə hazırdır: "Bizim həm iqtisadi, həm də mədəni bağlantımız düşündüyümüzdən daha da böyük və daha da genişdir. Hesab edirəm ki, tələtümlərin baş verdiyi bu vaxtda, - mən Avropada və Yaxın Şərqdə baş verən hadisələri, bütün geosiyasi çağırışları nəzərdə tuturam, - biz yaxşı və etibar etdiyimiz tərəfdaşlarımızla yeni əməkdaşlıq yollarını tapmağa çalışırıq. Azərbaycan həmişə Latviya üçün Cənubi Qafqazda və əslində daha geniş regionda əsas siyasət və ticarət tərəfdaşı olub, ticarət tərəfdaşıdır və ticarət tərəfdaşı olmağa davam edəcəkdir".

Onun sözlərinə görə, Azərbaycan nəinki Latviya, o cümlədən bir çox Avropa ölkəsi üçün həm siyasi, həm iqtisadi sahədə və ən vacibi isə energetika sahəsində strateji tərəfdaşdır.

ÜÇ ƏSRİN QƏZETİ Kaspi



# “SÜLH GÖYƏRÇİNLƏRİ”NİN İKİÜZLÜ SİYASƏTİ





Cənubi Qafqazda xaos və gərginliyin olmasında maraqlı qüvvələr regiondakı prosesləri özlərinin istədikləri axara yönəltməyə səy göstərirlər. Bu yolda şər və böhtandan da çəkinmirlər.

AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Cənubi Qafqazda əldə edilən sülh və sabitlik növbəti dəfə bəzi dairələrin təxribatçı planları ilə üz-üzədir. Hər zaman olduğu kimi, yenə də Avropada erməni lobbisi, bütövlükdə isə bölgəmizdə xaos və gərginliyin olmasında maraqlı qüvvələr mövcud durumu özlərinin istədikləri axara yönəltməyə səy göstərirlər. Söhbət eyni gündə Niderland və Belçika parlamentlərində qəbul edilən antisülh qətnamələrindən gedir.

### DÜNYAYA NÜMUNƏ GÖSTƏRİLƏN SÜLH

Bu gün Cənubi Qafqaz, xüsusilə də Azərbaycan və Ermənistan arasında razılaşma nəticəsində əldə edilmiş sabitlik dünyadakı genişlənən hərbi qarşıdurmalar fonunda nümunə kimi göstərilir. Bakı və İrəvan arasında sülh gündəliyinin irəlilədilməsi, qarşılıqlı etimad mühitinin formalaşdırılması, iqtisadi və ticari əlaqələrin bərpası, vətəndaş cəmiyyəti və parlamentlər arasında qarşılıqlı müzakirələr xüsusilə diqqətə layiqdir. Lakin Avropanın “sülh göyərçinləri” bu vəziyyətdən olduqca narahatdırlar, ya da bu ab-havada olduqlarını kimlərəsə təsdiqləməyə çalışırlar.

### XİN-DƏN ETİRAZ

Məsələ rəsmi Bakının da ciddi etirazına səbəb olub. Hətta Belçika Krallığının Azərbaycan Respublikasındakı səfiri Julyen de Frepon və Niderland Krallığının Azərbaycan Respublikasındakı səfiri Marian de Yonq ayrı-ayrılıqda Xarici İşlər Nazirliyinə (XİN) çağırılıblar. Görüşlər zamanı, 16 aprel 2026-cı il tarixində Belçika və Niderland parlamentləri tərəfindən qəbul edilmiş, Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü, eləcə də Azərbaycanla Ermənistan arasında davam edən sülh prosesini sarsıtmaq məqsədi daşıyan növbəti məsuliyyətsiz cəhdlər olan sənədlərə qarşı kəskin etiraz bildirilib. Sənədlərin tamamilə yalan və əsassız qiymətləndirmələrə uyğun olaraq tərtib edildiyi, bu qurumlar daxilində dərin kök salmış Azərbaycan əleyhinə qərəzi nümayiş etdirdiyi vurğulanıb. Sənədlərdə yer alan qəbuledilməz iddiaların beynəlxalq hüququn kobud şəkildə pozulması və qanunun aliliyinə açıq şəkildə müdaxilə olduğu qeyd edilib.

Bundan əlavə, görüşlər zamanı Azərbaycanın suveren əraziləri ilə bağlı saxta istinadlar, eləcə də Ermənistanın ərazi bütövlüyünün pozulması iddiası, erməni əsilli şəxslərin hüquqları və onların guya qanunsuz həbsi ilə bağlı bütün əsassız ittihamlar qətiyyətlə və sərt şəkildə rədd edilib. Sənədlərin qəbulunun Azərbaycan və Ermənistan parlamentlərinin spikerləri arasında son görüşlə üst-üstə düşdüyü üçün xüsusilə paradoksal olduğu səfirlərin diqqətinə çatdırılıb. Belçika və Niderland tərəfləri müvafiq parlamentlərində anti-Azərbaycan qruplarının ikitərəfli münasibətlərə zərər verməsinin qarşısını almaq üçün təsirli tədbirlər görməyə çağırılıblar.

### ÖDƏNİŞLİ ƏSASLARLA “XİDMƏT”

Əslində XİN-in bəyanatı hər şeyi deyir. Lakin bu qərarların qəbulunun bir də pərdəarxası mövcuddur. Söhbət avropalı parlamentarilərin demokratiya, insan hüquqları adı altında ayrı-ayrı lobbi qruplarının maraqlarına “xidmət”indən gedir. Təbii ki, ödənişli əsaslarla. Avropalı deputatların rüşvət müqabilində hətta ən qatı cinayətkarları belə müdafiə etmələri heç kimə sirr deyil. Demək olar ki, hər il rüşvət almaq üstündə ayrı-ayrı parlamentarilərin saxtakarlıq, riyakarlığa əsaslanan, şəxsi maraqları üstün tutduqları əməlləri ilə bağlı çoxsaylı faktlar yayılır. İndi də istisna deyil.

## Kağız parçasından fərqlənməyən sənədlər

Məlumdur ki, Azərbaycan və Ermənistan arasında gərginliyin davam etməsi ən çox dünyadakı erməni lobbisinin marağındadır. Çünki uzun illər işğal faktı lobbinin saxta yardım kampaniyaları adı altında əsas gəlir mənbələrindən biri olub. Separatizmə son qoyulması erməni diasporunun varlığını ciddi təhdid altında qoyub. Uzun illər erməni lobbisinin çirkli pulları ilə bəslənən avropalı deputatlar isə bu vəziyyətin onların da maraqlarına zərbə vurduğunu nəzərə alaraq əsası olmayan, heç bir tutarlı arqumentlərə söykənməyən kağız parçasından fərqsiz qətnamələrlə öz varlıqlarını sübut etməyə çalışırlar.

### ÖNCƏ YALANÇI DƏSTƏK, SONRA XƏYANƏT

Maraqlı məqamlardan biri odur ki, bu gün Avropanın özü çox ciddi qarşıdurmalar, iqtisadi və sosial çətinliklərlə üz-üzədir. Dünya Avropanın Ukrayna timsalında hansı dəstək və sülh gündəliyinə malik olduğunu əyani şəkildə görür. Onlar indi Ukraynanı qurban verməyə hazırlaşırlar. Özü də bu təşəbbüsün əsas ideya daşıyıcılarından biri bir neçə gün əvvəl parlamenti Azərbaycana və sülhə qarşı qətnamə qəbul edən Belçikadır. Hansı ki, bu ölkə Ukraynanı qurban vermək bahasına Rusiya ilə danışıqlarda israr edir. Əhalisinə sosial yardımları ödəməkdə aciz qalan hökumət günahı özündə yox, məhz Ukraynada görür. Hansı ki, bir neçə il əvvələ qədər sadə ukraynalılara Avropa ailəsi tərkibində xoşbəxt gələcək, firavan həyat vəd edilirdi.

### ÖZ İŞİNİZLƏ MƏŞĞUL OLUN!

Bu yanaşmanı həmin ölkələr uzun illər Azərbaycan və azərbaycanlılara qarşı da sərgiləyiblər. Milyondan artıq vətəndaşımızın öz doğma yurdlarından didərgin düşməsi, qaçqın həyatı yaşaması nədənsə avropalı deputatları narahat etmirdi. Lakin indi Azərbaycan dövlətinin öz gücü hesabına ərazi bütövlüyünü bərpa etməsi, işğala son qoyması, məcburi köçkünlərin doğma yurdlarına layaqətli qayıdışını təmin etməsi həmin deputatlarda qorxu yaradıb. Sülh, bölgəmizdəki sabitlik onların qorxulu yuxusuna çevrilib. Hər vəchlə bu prosesə əngəl olmağa çalışırlar. Lakin unutduqları bir məqam var. Azərbaycan Avropanın səbatsız dövlətlərinin əvvəlki qurbanlarına bənzəmir. Çünki biz qələbəni öz gücümüz, ali rəhbərliyin siyasi iradəsi, xalqın birliyi və əsgərimizin qanı ilə əldə etmişik. İndi istər Belçikanı, istərsə də digərlərini bizim sülh təşəbbüslərimiz yox, özlərinin düşdükləri bataqlıq düşündürməlidir.

# VATİKAN VƏ AĞ EV ARASINDA GƏRGİNLİK

ABŞ Prezidenti Donald Trampın qarşıdurma yaşadığı qurumlar sırasına Papalıq da daxil olub. Hər iki lider arasında illər əvvəl yaşanan gərginlik Yaxın Şərqdə gedən hərbi əməliyyatlarla daha da artıb.



AZƏR NURİYEV



Yaxın Şərqdə müharibə ölkələr, beynəlxalq təşkilatlarla yanaşı, dünyada söz sahibi olan şəxslər arasında da gərginlik yaradıb. Söhbət artıq bir müddətdir gündəmi tutan ABŞ Prezidenti Donald Trampla Roma Papası XIV Leo arasında yaşananlardan gedir. Belə demək mümkünsə, Trampın qarşıdurma yaşadığı qurumlar sırasına Papalıq da daxil olub. Hər iki lider arasında illər əvvəl yaşanan gərginlik Yaxın Şərqdə gedən hərbi əməliyyatlarla daha da artıb. İndiki gərginlik əsasən Ağ Evin xarici siyasət kursu və dini simvollardan istifadəsi ətrafında cərəyan edir.

### QARŞIDURMAYA SƏBƏB OLAN MÖVQE

Qarşıdurma Papanın ABŞ-nin İrana qarşı müharibə planlarını və hərbi ritorikasını tənqid etməsi ilə başlayıb. Tramp isə buna cavab olaraq Papanın müharibənin mahiyyətini anlamadığını və cinayətkarlıqla mübarizədə "zəif" olduğunu deyib. Tramp iddia edib ki, Papa ona "minnətdar" olmalıdır, çünki məhz ABŞ-nin təsiri ilə pontifik seçilib.

Bəzi analitiklər bu qarşıdurmanı Napoleon dövründən bəri bir siyasi liderlə Papa arasında yaşanan ən açıq mübarizə kimi qiymətləndirirlər. Son açıqlamasında Roma Papası Trampla birbaşa mübahisəyə girmək niyyətində olmadığını, lakin sülh tərəfdarı kimi fəaliyyətini davam etdirəcəyini vurğulayıb.

Öz növbəsində ABŞ-nin vitse-prezidenti Cey. Di. Vens də Tramp və XIV Leo arasında virtual debat barədə şərh verib: "Əlbəttə, düşünürəm ki, bəzi hallarda Vatikanın mənəvi məsələlərə toxunması daha yaxşıdır. Katolik kilsəsində baş verənləri müzakirə etsələr daha yaxşı olar". O, əlavə edib ki, Vaşinqton və Müqəddəs Taxt-tac arasındakı münaqişədən "çox da narahat deyil".



Donald Tramp

### TƏK TƏNQİD HƏDƏFİ İRAN MÜHARİBƏSİ DEYİL

Qeyd edək ki, XIV Leo Roma katolik kilsəsinin Amerikada doğulmuş ilk rəhbəridir. 70 yaşlı Papa 2025-ci ilin may ayında dünyadakı 1,4 milyard katolikin rəhbərliyini öz üzərinə götürüb. XIV Leo peşəkar administrator və mülayim siyasətçi hesab olunur. O, yoxsulların, miqrantların hüquqlarını müdafiə edən sələfi Papa Fransiskin işini davam etdirir. XIV Leo Donald Trampı təkcə İrandakı münaqişəyə görə tənqid etmir. Yanvar ayında XIV Leo Venesuela Prezidenti Nikolas Maduronun ələ keçirilməsi ilə bağlı narahatlığını ifadə etmişdi. Pasxa müraciətində o, dünya liderlərini silahlarını yerə qoymağa, sülhü seçməyə və dialoqa çağırmışdı.

### TRAMP BU DƏFƏ ÖZÜNƏ ÇƏTİN RƏQİB SEÇİB

Analitiklər bildirirlər ki, Tramp bu dəfə özünə çətin rəqib seçib. Napoleondan bəri heç bir siyasi lider Papa ilə ABŞ Prezidenti Donald Tramp qədər açıq qarşıdurmaya girməmişdi. Analitiklərin fikrincə, Tramp bu dəfə kifayət qədər güclü bir rəqiblə üz-üzədir. Papa və onun İsa Məsih kimi mübahisəli təsviri ilə bağlı şərhlər Trampın prezidentliyinə və Respublikaçılar Partiyasının 2026-cı ilin noyabr ayında keçiriləcək ara seçkilərdəki fəaliyyətinə mənfi təsir göstərə bilər. ABŞ-də səs vermək hüququ olan təxminən 53 milyon yetkin katolik var və onlar seçicilərin təxminən 20%-ni təşkil edirlər. Trampın 2024-cü ildə ikinci müddətə seçilməsinin əsas səbəbi, ABŞ-də siyasi cəhətdən qərarsız seçicilərin ən böyük qrupu hesab edilən katoliklərin sayəsində mümkün olub. Yeni Papanın ABŞ katolikləri arasında reytinqi təxminən 85% təşkil edir ki, bu da əvvəlki Papa Fransiskdən 6 faiz yüksək göstəricidir. Trampın isə amerikalılar arasında təsdiq reytinqi azalmaqda davam edir və hazırda 40%-dən çox deyil. Trampla Papa arasındakı münaqişə uzanarsa, respublikaçılar ara seçkilərdə Konqres üzərində nəzarəti tamamilə itirə bilərlər.



XIV Leo

### KATOLİK XEYRİYYƏ FONDU İLƏ MÜQAVİLƏ LƏĞV EDİLİB

Bu gərginlik fonunda Tramp administrasiyası Mayamidə (Florida ştatı) yerləşən katolik xeyriyyə təşkilatı ilə çoxillik müqaviləni ləğv edib. Söhbət "Catholic Charities" təşkilatından gedir. Müqavilənin ləğvi nəticəsində təşkilat 11 milyon dollar itirib. Bu vəsait yetkinlik yaşına çatmayanlar və miqrant uşaqlara yardım üçün nəzərdə tutulmuşdu. Federal müqavilənin ləğvi Vaşinqtonun qeyri-qanuni miqrasiya siyasəti ilə əlaqələndirilir. Təşkilat 60 ildən çoxdur bu cür xidmətlər göstərir. İddiaya görə, qərar mart ayında qəbul edilib, amma bu barədə məlumat yalnız indi - ABŞ Prezidenti Donald Trampla Roma Papası XIV Leo arasındakı gərginlik fonunda açıqlanıb.

### FRANSİSKLƏ XIV LEONUN FƏRQLƏRİ

XIV Leo Müqəddəs Taxtı tutmazdan əvvəl Trampın artıq əvvəlki pontifik Fransiskin simasında Vatikanla gərgin münasibətlər tarixi var idi. Ən məşhur epizod 2016-cı ilin fevralında baş verib - Fransisk Trampın Meksika ilə sərhəddə divar tikmək planlarını şərh edərək, yalnız divar tikmək haqqında düşünən, körpülər haqqında düşünməyən insanın "xristian olmadığını" söyləyib. Baxmayaraq ki, Fransisk dərhal daxili siyasətə müdaxilə etmək istəmədiyini və amerikalı katoliklərə seçkilərdə necə səs verməli olduqlarını göstərmək niyyətində olmadığını qeyd edib. 2025-ci ilin fevralında o, amerikalı katolik yepiskoplara açıq məktub dərc edib, burada Trampın Ağ Evə qayıdışından sonra miqrasiya siyasətini kəskin pisləyib. Papa miqrantların kriminallaşdırılmasını və "gücə əsaslanan" tədbirləri "pis nəticələnəcək siyasət" adlandırıb və qeyri-qanuni statusun avtomatik olaraq cinayətkarlıqla eyniləşdirilməsinin səhv olduğunu vurğulayıb. İki pontifik arasındakı fərq ondadır ki, Fransisk indiki Papadan daha şəxsiləşdirilmiş qaydada mübahisə edirdi. XIV Leo isə daha çox beynəlxalq hüquqa müraciət edir, humanitar nəticələr və icazə verilənin hüdudları haqqında danışır. O, demək olar ki, şəxsi xarakteristikalardan istifadə etmir, bunun sayəsində ifadələri daha yumşaq səslənir və artıq baş verənlərdən narazı olan amerikalı katoliklər arasında əks-səda verir.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

# EKRAN ARXASINDAN SİLAHA UZANAN YOL

**Son vaxtlar uşaqlarla bağlı faciəvi nəticələrə səbəb olan kriminal hadisələrin şahidi oluruq. Psixoloqlar hesab edirlər ki, buna səbəb dərin sosial uyğunsuzluq, medianın təsiri, evdə əlçatan silahların mövcudluğudur.**



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az




Ötən həftə Türkiyənin Kahramanmaraş şəhərində məktəbdə baş verən silahlı insident təkcə qardaş ölkədə deyil, bizim cəmiyyətə də şok yaşatdı. Səkkizinci sinif şagirdinin atasına məxsus silahı çantasında gizlədərək məktəbə gətirməsi və dəhlizlərdə qarşısına çıxanlara atəş açmaqla qətliama imza atması ciddi narahatlığa əsas yaratdı.

Bir neçə ay öncə Bakıdakı liseylərdən birində də 10-cu sinif şagirdi müəllimini güllələmişdi.

Bu həftə isə paytaxt məktəblərindən birində şagirdin sinif yoldaşının üzərinə spirt tökərək yandırması hadisəsi medianın və sosial platformaların növbəti şok xəbərinə çevrildi.

Psixoloqlar hesab edirlər ki, son vaxtlar uşaqlarla bağlı müşahidə edilən kriminal hadisələrin əsas səbəbləri kimi dərin sosial uyğunsuzluq, medianın təsiri, evdə silahların mövcudluğu və "güc" nümayiş etdirmək istəyi göstərilə bilər.

Bu faciəvi hadisələrdən sonra televiziyalarda yayımlanan kriminal serialların ssenarisinin, sosial platformaların ürəkaçmayan mənzərəsinin, zorakılığa təhrik edən internet oyunlarının məzmununun uşaqlara mənfi təsiri ilə bağlı məsələlər də yenidən gündəmə gəlib. Hətta Türkiyədə yayımda olan kriminal serialların ssenarilərinin dəyişdirilməsi, bəzi "Youtube" kanallarının bağlanması ilə bağlı xəbərlər də yayılmaqdadır.

## KİN, ƏDALƏTSİZLİK VƏ QİSAS

Bəzi beynəlxalq tədqiqatçılar artmaqda olan şagird aqressiyası fenomenini izah edəcək əsas səbəbi tapmağa çalışırlar. Elm adamları baş verənlərin çoxsaylı səbəbi olduğu qənaətinə gəlirlər: potensial "atıcı"nın aydın psixoloji profilini yaratmaq olduqca çətindir və bunun üçün müxtəlif testlər və davranış yoxlama siyahıları kifayət etmir. Məktəbə hücum edən, terror aktı törədən bir insanın davranışının şübhəsiz ki, mürəkkəb komponentləri var və buna görə də onu izah etmək asan deyil. Amma ümumilikdə məktəblilərin müəllimlərə və həmyaşıdlarına atəş açmaqla bağlı fantaziyaları əsasən kin, ədalətsizlik və qisas almaq istəyi ilə bağlanır.

## KÜTLƏVİ KOMMUNİKASİYANIN TƏSİRİ DANILMAZDIR

"Təəssüf ki, təkcə Türkiyədə və Azərbaycanda deyil, dünyanın müxtəlif yerlərində - inkişaf etmiş Avropa ölkələrində, ABŞ-da də məktəblərə silahlı hücumlarla tez-tez rastlaşırıq", - deyə professor Qulu Məhərrəmli bildirir: "Əlbəttə, Avropa və ya ABŞ ilə Azərbaycandakı və ya Türkiyədəki səbəb eyni ola bilməz. Amma görünən odur ki, motivlərdə oxşarlıqlar var. Bu da indiki şəraitdə kütləvi kommunikasiyanın insanlara, xüsusən uşaqlara təsiridir. İndi bütün uşaqlar 3-4 yaşlarından planşetlə oynayır, kompüter oyunlarına aludə olur. O cihazlarda çox dəhşətli, qəddarlıq yaradan oyunlar var: silah işlətmək, müəyyən tapşırıqları yerinə yetirmək, ətrafla münasibət və s. öyrədilir. Bütün bunlar uşaqlara öz mənfi təsirini göstərir". Professorun fikrincə, biz istər-istəməz bu məsələdə klassik üçbucağa qayıdırıq: "Məktəb-valideyn-ətraf mühit. Mənə elə gəlir ki, indi uşaqların tərbiyəsində ən mənfi rol oynayan valideynlərin təsiridir. Analar on il əvvəlkinə nisbətən indi daha çox məşğuldurlar. İşləyən anaların da övladlarına diqqəti lazım olan səviyyədə olmur. İndi ən yaxşı halda 10 anadan beşi birbaşa övladlarının tərbiyəsi ilə məşğul ola bilir. Qalanları uşaqları ya dayələrə tapşırır, ya özbaşına buraxırlar. Bu da nəticə etibarilə uşaqların və yeniyetmələrin davranışına mənfi təsir göstərir".



Qulu Məhərrəmli

**Foto:** Rüfət Mikayılov/Global Photostock

## "Uşaqların formalaşmasında problem mövcuddur"

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Pedaqoji psixologiya kafedrasının baş müəllimi Nigar Məmmədovanın fikrincə, uşaqların internet oyunlarından, telefonlardan asılılığı hədsiz çoxalıb: "Valideynlər də bundan narahatdırlar. Digər tərəfdən, şiddətli oyunlara meyillilik ilk növbədə ailədə sevginin olmamasından irəli gəlir. Uşaqların formalaşmasında problem mövcuddur, onlar ətraf mühitlə əlaqəli deyillər. Nəticədə onlar yolu kompüterdə axtarırlar. Türkiyədə baş verən hadisə öncəsi uşaq deyib ki, "indi məni görəcəksiniz! Mən uşaqlara qarşı qətliam düzənləyəcəm!" O uşaq diqqətdən kənarda olub. Ailə yetərincə tanınmış ailədir, amma uşağa vaxt ayrılmayıb. Hazırda ən böyük problemlərdən biri valideynlərin övladlarını yalnız maddi cəhətdən təmin etmək fikridir, uşaqlarla ünsiyyət yoxdur. Əgər valideyn uşağına bircə kəlmə "günün necə keçdi?" demirsə, uşaq o sualı internetdə axtaracaq. Uşaqlar var ki, ailə üzvləri ilə deyil, süni intellektlə dostluq edirlər. Virtual oyunların görünən və görünməyən fəsadları da var".

## "Bu hadisələrin ictimailəşdirilməsi düzgün deyil"

N.Məmmədovanın fikrincə, belə hadisələrin çox ictimailəşdirilməsi də düzgün deyil: "Çünki görünən bütün hadisələr, seriallar, filmlər insanın təhtəlşüuruna təsir göstərir. Bunlar şüuraltında qalır və nə vaxtsa təkrarlanmaq təhlükəsi yaranır. Bir zamanlar "Qurdlar vadisi" filminin qəhrəmanı Polad Ələmdar obrazı məşhur idi. Valideynlər hətta övladlarının adını Polad qoyurdular. Və ya "Diriliş Ərtoğrul" serialı da uşaqlara pis təsir göstərir. Ümumiyyətlə, indi çəkilən filmlər - atışmalar, vuruşmalar uşaqlar üçün izsiz ötüşmür. Uşaqlar özlərini həmin filmlərin qəhrəmanları kimi görmək istəyirlər. Özgüvəni aşağı olanlar o cür məzmunlara daha çox meyilli olurlar. Mən çox istərdim ki, belə filmlər müəyyən bir saatda verilsin ki, uşaqlar onlara baxa bilməsinlər. Sosial platformalara da nəzarət olmalıdır. Valideyn də uşağının yaş həddinə uyğun filmlərə, videolara baxmasına nəzarət etməlidir. O cümlədən, müəllimlər də uşaqlarla bu mövzuda ciddi söhbətlər etməlidirlər".



Nigar Məmmədova

# XİLASEDİCİ TƏŞƏBBÜS, YOXSA RİSKLİ QƏRAR?

Nikahdan əvvəl tərəflərdən narkoloji arayışın tələb edilməsi ilə bağlı səsləndirilən təklif birmənalı qarşılanmır. Təşəbbüs ilk baxışdan xilasedici görünsə də, mütəxəssislər qaydanın tətbiqi zamanı yaranacaq tibbi, hüquqi və mənəvi problemlər barədə xəbərdarlıq edirlər.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az




Hazırda ölkəmizdə nikaha daxil olmaq istəyən cütlüklərdən müəyyən xəstəliklər üzrə məcburi tibbi arayış tələb olunur. Milli Məclisin aprelin 10-da keçirilən iclasında bu tibbi tələblərin sırasına daha bir həssas məsələnin əlavə edilməsi təklifi irəli sürülüb. Deputat Göydəniz Qəhrəmanov narkotik vasitələrin cəmiyyət üçün yaratdığı böyük təhlükəni əsas gətirərək, nikah zamanı tərəflərdən narkoloji arayışın da tələb olunmasını təklif edib. Narkomaniyanın ailə institutuna vurduğu zərbələr fonunda bu təklif ilk baxışdan zəruri görünsə də, onun praktiki icrası cəmiyyətdə bir sıra ciddi suallar yaradır. Bəs, hüquqi və tibbi reallıqlar çərçivəsində belə bir qaydanın tətbiqi nə dərəcədə mümkündür? Mövcud sistem və laborator analizlər real istifadəçiləri dəqiqliklə aşkar edə bilərmi?

### "NARKOTİK QƏBULUNU MÜƏYYƏN EDƏN TESTLƏRİN APARILMASI VACİBDİR"

Sosial məsələlər üzrə ekspert İlqar Hüseynlinin sözlərinə görə, bu gün boşanmalara səbəb olan əsas sosial faktorlardan biri məhz narkomaniyadır. Bu baxımdan, evlilik ərəfəsində narkotik vasitələrin qəbulunu müəyyən edən testlərin aparılması olduqca vacibdir: "Bildiyimiz kimi, hazırda nikaha daxil olan cütlüklərdən tələb edilən tibbi arayışlar və laborator analizlər yalnız reproduktiv sağlamlıqla bağlı amilləri nəzərə alır. Evlənmədən öncə fərdlərin qısa müddət ərzində narkoloji testdən keçməsi elə də çətin proses deyil. Bu gün hər bir poliklinika və ya klinikada qan nümunələri götürərək narkotestlərin aparılması üçün kifayət qədər imkan var. Narkotik vasitələrin izləri qanda uzun müddət qalır və bunu analiz vasitəsilə aşkarlamaq asandır".

### "UNİVERSAL LABORATORİYALARA EHTİYAC VAR"

Tibb elmləri doktoru, professor Adil Qeybulla da bildirdi ki, belə bir qaydanın tətbiq edilməsi ilə insanlar daha ehtiyatlı davranacaqlar. Bu, hər halda çəkindirici bir göstəricidir. Lakin əsas məsələ bunun Azərbaycan reallığında nə dərəcədə işlək olacağıdır: "Əvvəla, mövcud laboratoriyaların heç də hamısı bütün narkotik maddələri dəqiqliklə aşkar edə bilmir. Bu gün dövriyyədə müxtəlif növ metamfetaminlər, həb formasında olan fərqli sintetik maddələr var. Təəssüf ki, onların hamısını vaxtında və dəqiq müəyyən etmək mümkün deyil. Digər tərəfdən, asılılığın təsdiqlənməsi üçün təkcə laboratoriya analizləri kifayət etmir. Bu şəxslərin həm də əsaslı tibbi müayinədən keçirilməsi məqsədəuyğundur. Hazırda ənənəvi opiat (morfin və digər narkotik analgetiklər) asılılığı olanların sayı əvvəlki dövrlərlə müqayisədə azalsa da, müasir istifadəçilər daha çox heroin, kokain, metamfetamin, LSD və müxtəlif sintetik həblərə müraciət edirlər. Bunların hər biri güclü asılılıq yaradır. Belə vəziyyətdə, analizləri dəqiq və səhih yerinə yetirə bilən, həm güvənli, həm də məsuliyyəti tam müəyyənləşdirilmiş universal laboratoriyalara ehtiyac var. Lakin hazırda analizlərlə bütün maddələri tam aşkarlamaq mümkün olmur".

### "Necə rəsmiləşdiriləcəyi də sual altındadır"

Professorun sözlərinə görə, məsələnin insan hüquqlarının pozulması aspekti də mövcuddur: "Məhz bu səbəblərdən, nikahdan əvvəl məcburi testləşdirmə təklifi kifayət qədər mücərrəd və riskli görünür. Məsələ hərtərəfli, xüsusilə də insan hüquqları kontekstində dərindən araşdırılmalıdır. Aşkarlanan nəticələrin necə rəsmiləşdiriləcəyi və qarşı tərəfə necə bildiriləcəyi də sual altındadır. Təsəvvür edin, kiminsə qanında hər hansı bir maddə aşkarlandı və bu, ailələrarası ciddi konfliktə, münasibətlərin tamamilə pozulmasına səbəb oldu. Bu, özlüyündə böyük bir sosial narahatlıq yaradır. Ona görə də, əgər belə bir təklif gündəmdədirsə, onun bütün mümkün fəsadları əvvəlcədən düşünülməli, hüquqi və tibbi tərəfləri tam həll olunmalıdır".

### "Testlər insanın asılı olub-olmamasını dəqiq ifadə etmir"

Tibb elmləri doktoru, psixiatr-narkoloq Araz Əliquliyev isə düşünür ki, bu testlər insanın asılı olub-olmamasını dəqiq ifadə etmir. Test sadəcə şəxsin bioloji mühitində maddənin aşkar edildiyini göstərir: "Digər tərəfdən, insanlar nikahdan əvvəl belə bir test veriləcəklərini bilsələr, istifadəni müvəqqəti dayandıra və ya maddənin bədəndən təmizlənməsi üçün tibbi tədbirlər görə bilərlər. Psixoaktiv maddələrin əksəriyyəti qanda deyil, sidikdə qalır və adi skrininq testləri ilə cəmi 3-5 gün ərzində aşkarlana bilir. Tibbi tədbirlər (detoks, qan yuma və s.) görülsə, maddənin izini gizlətmək mümkündür. Testdə maddənin çıxması da şəxsin asılı olmasının əsası deyil".

Narkoloqun fikrincə, "Narkoloji xidmət və nəzarət haqqında" qanuna əsasən, şəxs ambulator müalicədən imtina edirsə, dəqiq diaqnoz qoymaq üçün o, 10 günlük xəstəxana şəraitində yoxlanılmalıdır: "Asılılığı isbat etmək üçün nikaha girən hər kəsi xəstəxanayamı yerləşdirəcəksiniz? Güclü təsir edən psixotrop maddələr və dərmanlar var ki, onlar xüsusi lisenziyası olan apteklərdə, elektron reseptlə satılır. Onların da sui-istifadəsi mümkündür. Dövriyyəsinə nəzarət edilən və həkim tərəfindən yazılan psixotrop dərmanlar da asılılıq yarada bilir və testdə müsbət nəticə göstərir. Bunları necə əsaslandıracaqsınız?"

A.Əliquliyevin sözlərinə görə, testlər yanlış nəticə də verə bilər. Bu baxımdan, insanların hüquqlarının pozulması riski var: "Əgər mən testin müsbət nəticəsinə əsasən kiməsə "narkoman" olduğunu desəm, o şəxs mənəvi zərbəyə və mənliyinin alçaldılmasına görə məni məhkəməyə verə bilər. Dəqiq bioloji faktorları öyrənən analizlər isə bahalıdır - 200-300 manatdan yuxarıdır".



# DAŞINMAZ ƏMLAK SIĞORTASINDA YENİ MƏRHƏLƏ



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az



**Daşınmaz əmlakın icbari sığortası üzrə yeni yanaşma tətbiq olunur. Yeni yanaşmanın əsas hədəfi katastrofik riskləri daha düzgün qiymətləndirmək və bədbəxt hadisələr zamanı vətəndaşlara daha adekvat sığorta ödənişlərini təmin etməkdir.**

Azərbaycanda daşınmaz əmlakın icbari sığortası sahəsində illərdir davam edən durğunluğu aradan qaldırmaq və vətəndaşların əmlakını daha etibarlı qorumaq məqsədilə yeni konsepsiya hazırlanıb. Azərbaycan Mərkəzi Bankının (AMB) baş direktoru Vüsal Qurbanovun açıqladığı yeni yanaşmanın əsas hədəfi katastrofik riskləri daha düzgün qiymətləndirmək və bədbəxt hadisələr zamanı vətəndaşlara daha adekvat sığorta ödənişlərini təmin etməkdir. Yeniliyin ən mühüm elementi sığorta məbləğinin artıq vahid standartla deyil, dövlət qurumları ilə inteqrasiya olunmuş elektron platformalar vasitəsilə əmlakın parametrlərinə, yaşayış sahəsinin kvadratmetrinə və yerləşdiyi əraziyə uyğun formalaşdırılmasıdır.

### "İCBARİ SIĞORTANIN ƏHATƏ DAİRƏSİ ON FAİZDƏN AŞAĞIDIR"

Sığorta eksperti İlkin Nəcəfovun sözlərinə görə, hazırda daşınmaz əmlakın icbari sığortası üzrə bazarın əhatə dairəsi on faizdən də aşağıdır: "Yəni, Bakıdakı hər yüz evdən heç onu belə icbari qaydada sığortalanmayıb. Bunun isə tək bir səbəbi var, cərimə mexanizmi işləmir. Mövcud qanunvericiliyə əsasən, bu sığorta kifayət qədər geniş riskləri - yanğın, partlayış, ildırım vurması, daxili su basması və ya qonşudan su sızması, habelə üçüncü şəxslərin qərəzli hərəkətləri nəticəsində əmlaka dəyən zərəri əhatə edir. Sığorta predmeti sadəcə quru divarlar deyil, bura əmlakın əsas konstruksiyaları, qapı-pəncərəsi, tavanı, döşəməsi və daxili təmiri də daxildir. Əsas hədəfimiz sadəcə bu mükəmməl təminat paketini bazara düzgün tətbiq etmək və əhalinin sistemə kütləvi cəlb olunmasını təmin etməkdən ibarət olmalıdır".

İ.Nəcəfov bildirdi ki, yeni konsepsiyanın uğuru, ilk növbədə, işlək cərimə mexanizminin tətbiqindən asılıdır: "Şəxsi fikrimcə, avtomobillərin icbari sığortasında olduğu kimi, daşınmaz əmlak sığortasında da real cərimələr tətbiq edilməsə, istənilən cəlbedici təklif əhali tərəfindən rəğbətlə qarşılanmayacaq. Bu vəziyyəti dəyişmək üçün hökumət, Mərkəzi Bank və İcbari Sığorta Bürosu tərəfindən müxtəlif variantlar nəzərdən keçirilir. Sığorta haqqının kommunal ödənişlərə, xüsusən də işıq puluna inteqrasiya edilməsi, məbləğin bələdiyyə orqanları tərəfindən yığılması və ya icra hakimiyyətləri tərəfindən icbari sığortası olmayanlar üçün xüsusi cərimə protokollarının tətbiqi kimi müxtəlif təkliflər müzakirə olunur".



İlkin Nəcəfov

## "Yeni konsepsiya ədalətli və çevikdir"

Ekspertin fikrincə, tətbiq edilməsi gözlənilən yeni konsepsiya əvvəlki qaydalarla müqayisədə qat-qat ədalətli və çevikdir. Köhnə qaydalardakı ən böyük natamamlıq məbləğlərin hamı üçün eyni olması idi: "Hövsanda 70 min manatlıq bir otaqlı panel evlə, Gənclikdəki 10 milyonluq villanın sığorta haqqı 50 manat təşkil edirdi. Çünki hər ikisi mülkiyyətin real dəyərindən asılı olmayaraq, 25 min manatlıq standart sığorta təminatı alırdı. Yeni konsepsiyada isə regionlar, şəhərin məskunlaşma dərəcəsi və zonalar üzrə sığorta haqqı və məbləğləri dəyişəcək".

### "SƏNƏDSİZ EVLƏR ƏSAS PROBLEMDİR"

Əmlak eksperti Elnur Fərzəliyevin sözlərinə görə, bütün dünyada məcburi xarakter daşıyan sığorta sistemi ölkəmizdə avtomobil və digər sahələrdə işləsə də, daşınmaz əmlak sektorunda hələ də tam tətbiq edilə bilmir: "Bunun əsas səbəbi ölkədə yüz minlərlə çıxarışı olmayan əmlakın mövcudluğudur. Qanunvericiliyə görə, hər hansı bir əmlakın sığortalanması üçün mütləq şəkildə mülkiyyət hüququnu təsdiq edən sənəd olmalıdır".

E.Fərzəliyevin fikrincə, məsələnin digər tərəfi isə çıxarışlı əmlak sahibləri arasında da sığortalanma səviyyəsinin aşağı olması və maarifləndirmənin çatışmazlığıdır: "Son beş ildə Bakı və Abşeron ərazisində satılan sənədli mənzillərin 60 faizindən çoxu ipoteka və ya daxili kreditlərlə alındığı üçün müqavilə müddəti bitənə qədər məcburi qaydada sığortalanır. Bu, çox müsbət haldır, çünki risk anında zərər dərhal qarşılanır. Lakin kreditdə olmayan sənədli mənzil sahibləri illik cəmi 50 manat ödəyərək 25 min manatlıq təminat almaqda maraqlı görünmürlər. Bakı şəhərində dəyəri yüz minlərdən milyonlara qədər dəyişən və minimal olaraq 400 manata kirayə verilən saysız-hesabsız mənzillər var. Təcrübə göstərir ki, yanğınlar, qısaqapanmalar və ya subasmalar kimi sığorta hadisələri məhz daha çox kirayə verilən evlərdə baş verir. Nəticədə zərərin ödənilməsi prosesi məhkəmələrə qədər uzanır. Halbuki sığorta vasitəsilə bu problemi sivil və sürətli şəkildə həll etmək olar".



Elnur Fərzəliyev

## "Yalnız sənədli evlərə tətbiq ikitirəlik yaradacaq"

Ekspert bildirdi ki, yeni icbari sığorta konsepsiyası hazırlanarkən bu reallıqlar mütləq nəzərə alınmalıdır. Mənzil istifadədədirsə, onun qazı, işığı, kommunal xətləri çəkilibsə və qeydiyyatı mövcuddursa, çıxarışın olub-olmamasından asılı olmayaraq, bu əmlak sığortalana bilməlidir: "Yalnız sənədli evlərə məcburiyyət tətbiq etmək ikitirəlik yaradacaq, mənzillərin yarısı sığortalı, qalan yarısı isə sığortasız qalacaq. Buna görə də, yeni konsepsiyada sırf sənədsiz evlərin sığortaya cəlb edilməsi və ya onların sənədləşdirilməsi prosesinin sürətləndirilməsi istiqamətində addımlar atılmalıdır. Bu hal həm sığorta şirkətlərinin fəaliyyətini genişləndirər, həm də vətəndaşların təhlükəsizliyini təmin edər. Sığorta haqqının yığılması isə vətəndaşların mütəmadi ödədiyi kommunal xərclərə inteqrasiya oluna bilər. Avtomobillərin icbari sığortası da ilk vaxtlar narazılıqla qarşılanmışdı. Lakin sonradan qəzalar zamanı dəymiş zərərin sığorta şirkətləri tərəfindən ödənildiyini görən sürücülər bu gün nəinki icbari, hətta könüllü sığortalara belə özləri müraciət edirlər. Daşınmaz əmlak sığortasında da məhz bu cür inamın formalaşması vacibdir".

# ŞENGEN ZONASINA GİRİŞ DAHA DA SƏRTLƏŞƏCƏK

## Turizmçi Günel Şıxıyeva: "Yeni qaydalara əsasən, Şengen vizası ilə ilk giriş mütləq viza alınan ölkədən həyata keçirilməlidir. Yeni sistemin ən əsas dəyişikliyi kimi turistlərin bu məqama xüsusi diqqət yetirməsi tövsiyə olunur".



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az




"Avropa ölkələrinə səyahət üçün qaydalar sərtləşir", "Şengen ölkələrinə giriş çətinləşəcək", "Viza almaqda problemlər yaranacaq"... Avropa İttifaqında sərhəd nəzarətinin rəqəmsallaşdırılması istiqamətində EES (Entry/Exit System- giriş-çıxış sistemi) sisteminin tam şəkildə tətbiqinə başlanandan sonra sosial şəbəkələrdə bu tip narahatlıqlar müşahidə edilməkdədir. Yeni qaydalara əsasən, Avropa İttifaqına daxil olan və ittifaq üzvü olmayan ölkələrin vətəndaşları üçün sərhəd prosedurlarında edilən ciddi dəyişikliklər müəyyən narahatlıqlara əsas verib. Xatırladaq ki, sistem 12 oktyabr 2025-ci ildən qüvvəyə minsə də, onun tam funksional tətbiqi 10 aprel 2026-cı ildən etibarən reallaşıb.

Turizmçi Günel Şıxıyeva ilə müsahibəmizdə mövzu ilə bağlı yaranan suallara aydınlıq gətirməyə çalışdıq:

### "MƏQSƏD SƏRHƏD TƏHLÜKƏSİZLİYİNİ GÜCLƏNDİRMƏKDİR"

**● Günel xanım, Şengen ölkələrinə giriş-çıxışda tətbiq olunan yeni qaydalar əsasən nədən ibarətdir?**

● EES (Entry/Exit System) sərhəd keçidlərini rəqəmsal şəkildə idarə edən sistemdir. Əvvəlki sistemlə müqayisədə yeni mexanizm daha şəffaf və effektiv nəzarət imkanı yaradır. Əvvəllər sərhəd keçidləri əsasən manual şəkildə yoxlanılır, nəzarət qismən aparılır və icazə verilən müddətdən artıq qalma halları çətin izlənirdi. Yeni sistem isə tam avtomatlaşdırılmış idarəetmə ilə bu boşluqları aradan qaldırır. Xüsusilə 90/180 gün qaydasına riayət olunmasına nəzarət artıq daha dəqiq və operativ şəkildə həyata keçirilir. Bu isə həm qanunsuz qalma hallarının qarşısını almağa, həm də ümumi sərhəd təhlükəsizliyini gücləndirməyə xidmət edir. Ən diqqətçəkən yeniliklərdən biri pasportlara möhür vurulmasının ləğv edilməsidir. Artıq sərhədi keçən şəxslərin giriş və çıxış məlumatları tam rəqəmsal şəkildə qeyd olunur. Bununla yanaşı, ilk giriş zamanı barmaq izi, üz tanıma (biometrik üz yoxlaması) və pasport məlumatlarının toplanması həyata keçirilir. Sonrakı girişlərdə isə yalnız sürətli yoxlama aparılır. Sistem 90/180 gün qaydasına avtomatik nəzarət edir və məlumatları 3 ilədək saxlayır. Bu, sərhəd nəzarətini daha sürətli və effektiv edir, həmçinin icazəsiz müddətdən çox qalma hallarının qarşısını alır.

EES sisteminin tətbiqi Avropa İttifaqında miqrasiya axınlarının daha effektiv idarə olunmasına və təhlükəsizlik risklərinin minimuma endirilməsinə töhfə verəcək.

**● Biometrik məlumatlar necə toplanır?**

● EES sistemi çərçivəsində sərhəd keçidi zamanı biometrik məlumatların toplanması xüsusi qaydada həyata keçirilir. Bu proses sərhəd məntəqələrində yerləşən avtomatlaşdırılmış köşklər və ya sərhəd əməkdaşları vasitəsilə icra olunur. Toplanılan biometrik məlumatlara "Barmaq izi", "Üz şəkli" daxildir. 12 yaşdan aşağı uşaqlar üçün isə daha sadələşdirilmiş qayda tətbiq edilir. Bu yaş qrupuna aid şəxslərdən yalnız fotoşəkil götürülür, barmaq izi tələb olunmur.

**● ETIAS sistemi nədir?**

● ETIAS - Avropa Səyahət Məlumatı və İcazə Sistemi (European Travel Information and Authorisation System) 2026-cı ilin sonlarından tətbiq olunması planlaşdırılan səyahət icazə sistemidir. Bu, vizasız rejimlə Avropa İttifaqına səfər edən ölkələrin vətəndaşlarına şamil olunan elektron icazədir. Buraya Amerika Birləşmiş Ştatları, Birləşmiş Krallıq və Kanada kimi ölkələr daxildir. Bu sistem Azərbaycan vətəndaşlarına şamil olunmur.

### "RƏDD CAVABLARININ ARTMA EHTİMALI VAR"

**● Bu sistemlər turistlərin Şengen zonasına girişini çətinləşdirəcək, yoxsa asanlaşdıracaq?**

● Uzun müddətdə bu sistem tam tətbiq edildikdən sonra sərhəd keçidi daha sürətli olur, növbələr azalır. Qısa müddətdə, yeni hələ yeni qüvvəyə mindiyi üçün hava limanlarında müəyyən gecikmələr baş verə bilər. Ümumilikdə isə sistem uzunmüddətli dövrdə sərhəd keçidlərini daha rahat və effektiv etməyə xidmət edir.

**● Yeni sistemin Azərbaycan vətəndaşlarına təsiri olacaqmı?**

● EES və ETIAS sistemləri Azərbaycan vətəndaşları üçün viza qaydalarını dəyişmir, lakin sərhəd nəzarəti daha sərt və dəqiq olacaq. Şengen vizası əvvəlki kimi tələb olunur, lakin sənədlərin yoxlanılması daha ciddi aparılır və səyahət planları daha detallı analiz edilir. İcazəsiz müddətdən artıq qalma və əvvəlki pozuntuların sistemdə görünməsi səbəbilə rədd cavablarının artma ehtimalı var. İlk dəfə müraciət edənlər üçün maliyyə sübutu, iş yeri arayışı, geri dönüş sübutu daha ciddi yoxlanılır. Ən çox edilən səhvlər isə saxta və ya yanlış bronlar, uyğunsuz tarixlər, zəif maliyyə vəziyyəti, düzgün olmayan iş yeri məlumatları və sığorta, saxta səyahət planı ilə bağlı olacaq. Yeni qaydalara əsasən, Şengen vizası ilə ilk giriş mütləq viza alınan ölkədən həyata keçirilməlidir. Yeni sistemin ən əsas dəyişikliyi kimi turistlərin bu məqama xüsusi diqqət yetirməsi tövsiyə olunur.

## "Əvvəlcədən elektron icazə alınması tələb ediləcək"

**● Yaxın illərdə Avropa ölkələrinə girişlə bağlı daha hansı yeniliklər gözlənilir?**

● Avropa İttifaqında sərhəd nəzarətinin rəqəmsallaşdırılması davam edəcək. 2026-cı ilin sonlarına doğru ETIAS sistemi də tam tətbiq olunacaq. Vizasız rejimlə səyahət edən şəxslərdən əvvəlcədən elektron icazə alınması tələb ediləcək". Bu o deməkdir ki, elektron vizasız səyahət edənlər üçün əvvəlcədən elektron icazə tələb ediləcək. Bundan əlavə, bütün giriş-çıxışların tam rəqəmsal izlənməsi daha da gücləndiriləcək.

**● Şengen zonasına giriş daha da sərtləşəcək deyə bilərikmi?**

● Bəli, müəyyən mənada sərtləşmə müşahidə olunacaq. EES sistemi ilə biometrik nəzarət, avtomatik 90/180 gün izlənməsi və məlumat bazası üzərindən yoxlamalar artıq məcburi olacaq. Bu isə sərhəd keçidlərində daha ciddi nəzarət deməkdir.

**● Prosesin turizmə təsiri necə olacaq?**

● Qeyd etdiyim kimi, sistemin tətbiqi ilə əlaqədar ilk vaxtlar hava limanlarında gecikmələr və adaptasiya dövrü yaşana bilər. Uzunmüddətli perspektivdə isə sistem turizmi daha təhlükəsiz, şəffaf və idarəolunan hala gətirəcək. Bu da ümumilikdə səyahət axınlarını daha stabil edəcək.

Ən əsası, yeni qaydalara əsasən, viza alındığı ölkədən ilk giriş tələbi qüvvədə olduğu üçün fərqli ölkələrdən edilən müraciətlər daha şəffaf və sistemli xarakter daşıyacaq. Bunun nəticəsində səfirliklər üzərində olan yük azalacaq, görüşlərin təyin olunması və ümumi viza prosesi daha nizamlı və şəffaf şəkildə həyata keçiriləcək. Bu isə ümumilikdə turizm sektorunun inkişafına mühüm töhfə verəcək.



Günel Şıxıyeva

# ƏQLİ MÜLKİYYƏT QARŞISINDA YENİ VƏZİFƏLƏR

İnnovasiya Potensialına Baxış tədqiqatına əsasən, ölkələrin yalnız 10%-i öz texnoloji potensialını tam şəkildə reallaşdırır.



Bakıda "Beynəlxalq Əqli Mülkiyyət Günü" münasibətilə "İnnovativ Potensial: Əqli Mülkiyyət + Süni İntellekt" mövzusunda dəyirmi masa keçirilib.

### ƏQLİ MÜLKİYYƏTİN İNKİŞAFINA MÜHÜM TÖHFƏ VERİR

Tədbirdə çıxış edən Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanov bildirib ki, elm, təhsil və əqli mülkiyyət qarşısında yeni vəzifələr dayanır.

Onun sözlərinə görə, süni intellektin istifadəsi vasitəsilə gücləndirildiyi halda, əqli mülkiyyət innovasiya potensialına təsir imkanlarını genişləndirmək üçün tamamilə əlverişli olur.

Kamran İmanovun sözlərinə görə, İnnovasiya Potensialına Baxış tədqiqatına əsasən, ölkələrin yalnız 10%-i öz texnoloji potensialını tam şəkildə reallaşdırır: "Məhz elmi, texnoloji, sahibkarlıq və istehsal potensiallarının cəmləşdiyi dövlətlərdə innovasiya imkanlarını artırmaq və qlobal səviyyədə irəliləyişlərə nail olmaq mümkün olur".

O qeyd edib ki, texnoloji innovasiyalar sahəsində iqtisadiyyatların yalnız 10%-i öz patent potensialını reallaşdırır.

Sədr əlavə edib ki, süni intellekt əqli mülkiyyətin inkişafına mühüm dəstək verir. Bunun üçün isə süni intellekt texnologiyalarının məqsədyönlü şəkildə hazırlanması və tətbiqi vacibdir.

## Müəyyən suallar yaradır

Milli Məclisin deputatı Hicran Hüseynova bildirib ki, süni intellektin sürətlə yayılması əqli mülkiyyət sahəsində konseptual suallar meydana çıxarır.

Onun sözlərinə görə, süni intellekt müxtəlif sahələrin inkişafında mühüm yer tutur: "Süni intellektin sürətlə yayılması əqli mülkiyyət sahəsində konseptual suallar meydana çıxarır. Məhsulun sahibinin kim olması sualı ortaya çıxır. Son zamanlar dünyada süni intellekt sahəsində strategiyalar müəyyənləşdirilir".

Azərbaycanda da belə bir strategiyanın təsbitinə toxunan deputat əlavə edib ki, ölkədə rəqəmsallaşma, elektron hökumət, süni intellekt, innovasiyalar sahəsində fəaliyyət təkmilləşdirilir.

### BƏZİ HALLARDA SÜNİ İNTELLEKTDƏN YANLIŞ İSTİFADƏ EDİLİR

Milli Məclisin deputatı Siyavuş Novruzov bildirib ki, Azərbaycanda ədəbiyyat, mədəniyyət və mətbuat sahələrində bəzi hallarda süni intellektdən yanlış istiqamətdə istifadə olunur.

Onun sözlərinə görə, bu gün süni intellekt dünyada və Azərbaycanda geniş tətbiq edilir: "Süni intellektin yaxşı tərəfləri olsa da, gətirdiyi pis vərdişlərin qarşısını almaq lazımdır. Bu gün süni intellekt Azərbaycan mədəniyyətinə, ədəbiyyatına, mətbuatına təsir edir. Görürük ki, bəzi hallarda süni intellekt yanlış istiqamətdə istifadə edilir. Bu da müəlliflik hüququna təsir göstərir. Ona görə də bununla bağlı tədbirlər görülməlidir".

Deputat süni intellektlə əlaqədar qanunvericiliyə müvafiq dəyişikliklər edilməsinin, ondan yalnız iş şəraitinin, insanların inkişafı üçün istifadə olunmasının zəruriliyini vurğulayıb.




# Bakcell gənc qızların İKT sahəsində təhsilinə dəstək verir

İnnovasiya lideri Bakcell 23 aprel – Beynəlxalq İKT-də Qızlar Günü münasibətilə gənc qızların texnologiya sahəsinə marağını artırmağa yönəlmiş xüsusi tədbir təşkil edib. Tədbir Bakcell və "Peerstack Academy"nin birgə layihəsi olan "Tech Builders" çərçivəsində baş tutub.

Tədbirdə Bakcell-in İctimaiyyətlə əlaqələr və korporativ kommunikasiyalar üzrə direktoru Aysel Süleymanova çıxış edərək şirkətin süni intellekt və innovasiya istiqamətində həyata keçirdiyi təşəbbüslərdən, eləcə də gənclər üçün yaratdığı inkişaf imkanlarından bəhs edib. O bildirib ki, texnologiya sahəsində gender balansının gücləndirilməsi və qızların bu istiqamətdə aktiv iştirakının təşviqi Bakcell üçün prioritetlər sırasındadır.

Proqram çərçivəsində Azərbaycan Mərkəzi Bankının Maliyyə texnologiyaları və innovasiyalar departamentinin direktoru Fidan Tofidi ilə interaktiv müzakirə sessiyası keçirilib. Sessiyada texnologiyaların sürətlə dəyişən mühiti, müxtəlif sahələrə təsiri və karyera inkişafı mövzuları ətrafında fikir mübadiləsi aparılıb.

İştirakçılar üçün süni intellekt, innovasiya və müasir texnologiyalar mövzusunda praktiki təlimlər təşkil olunub. Sessiyada süni intellekt trendləri, effektiv "prompt"ların hazırlanması prinsipləri və real tətbiq nümunələri izah edilərək iştirakçıların həm nəzəri bilikləri, həm də praktiki bacarıqları inkişaf etdirilib.

Bakcell-in tərəfdaşlığı ilə həyata keçirilən layihə çərçivəsində "Peerstack Academy"də təhsil alan tələbələrin sayı artmaqdadır. Hazırda akademiyada 100-dən çox aktiv tələbə təhsil alır və ilk il üzrə 250 nəfərin təqaüd proqramına cəlb olunması planlaşdırılır. Tədris müddətində iştirakçılar "Ruby", "JavaScript", "React", "PostgreSQL" və "REST API" kimi müasir texnologiyalar üzrə praktiki biliklər qazanır, real layihələr üzərində işləyərək peşəkar portfoliolarını formalaşdırırlar.

# SOCAR VƏ "BGP INC." ƏMƏKDAŞLIĞIN GENİŞLƏNDİRİLMƏSİNİ MÜZAKİRƏ EDİB



Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) və Çinin "BGP Inc." şirkəti arasında əməkdaşlığın daha da genişləndirilməsi müzakirə edilib. "Report" bu barədə SOCAR-a istinadən xəbər verir.

Məlumata görə, qurumun prezidenti Rövşən Nəcəf Çin şirkətinin İdarə Heyətinin sədri və icraçı direktoru Ren Vencun ilə görüşüb.

Görüşdə şirkətlər arasında ötən illər ərzində formalaşmış əməkdaşlıq əlaqələrindən məmnunluq ifadə edilib, SOCAR və "BGP Inc."nin birgə təsis etdiyi "Caspian Geo" şirkətinin Xəzər regionunda qabaqcıl texnologiyalar əsasında seysmik tədqiqat işlərinin həyata keçirilməsində aparıcı mövqeyi xüsusi vurğulanıb.

Tərəflər cari layihələrin icrasına, əməliyyat fəaliyyətinin səmərəliliyinin artırılmasına və əməkdaşlığın daha da genişləndirilməsi imkanlarına dair fikir mübadiləsi aparıblar.

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ

Təsisçi
**Global Media Group**

Baş redaktor
**İlham Quliyev**

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Aqşin Kərimov, Rasim Məzahiroğlu, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**

Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**

Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 532
Tiraj: 2000
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

# İMTAHAN SUALLARI NİYƏ ÇAŞDIRIR?



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

**Buraxılış imtahanından sonra abituriyent və valideynlərin sualların çətin olması ilə bağlı şikayətləri eşidilir. Zonalar üzrə keçirilən imtahanlar arasında böyük vaxt fərqinin nəticələrdə mənfi rol oynaması ilə bağlı narazılıqlar da var.**

Tam orta təhsil səviyyəsi üzrə mart ayında keçirilən buraxılış imtahanından sonra mediada və sosial platformalarda abituriyent və valideynlərin sualların çətin olması ilə bağlı şikayətləri eşidilir. Buraxılış imtahanlarının mərhələli təşkili, zonalar üzrə keçirilən imtahanlar arasında böyük vaxt fərqinin nəticələrdə mənfi rol oynaması ilə bağlı da şikayətlər var. Bugünlərdə Elm və təhsil naziri Emin Əmrullayevin “Azərbaycanda bəzi fənn mütəxəssisləri istər dil, istərsə də tarix sahəsində suallar hazırlayarkən daha çox qarşı tərəfi çaşdırmağa çalışırlar, nəinki onun bilik və bacarıqlarını ölçməyə” fikirləri isə valideyn və abituriyentlərin fikirlərinə bir növ haqq vermiş oldu.



Foto: Tapdıq Abdullayev/Global Photostock

### “SUAL DÜŞÜNDÜRÜCÜ OLMALIDIR, ÇAŞDIRICI YOX”

Elm və Təhsil Nazirliyi (ETN) yanında İctimai Şuranın üzvü Günay Əkbərovanın fikrincə, nazirin səsləndirdiyi fikir əslində uzun illərdir səssiz şəkildə danışılan bir narahatlığı üzə çıxarıb: “Bəzən həqiqətən də elə suallar olur ki, şagird “tələyə düşməmək” üçün diqqət oyununa girir. Bu da belə bir hiss yaradır ki, sanki məqsəd şagirdin nəyi bildiyini yox, harada çaşacağını yoxlamaqdır. Amma digər tərəfdən baxanda, imtahan suallarının müəyyən hissəsinin düşündürücü və fərqləndirici olması da vacibdir. Çünki yüksək nəticə göstərənlərlə orta nəticə göstərənləri ayırmaq üçün yalnız sadə yaddaş tipli suallar kifayət etmir. Dünya təcrübəsində də suallar daha çox analiz, tətbiq və düşünmə bacarıqlarını ölçür. Amma burada incə xətt var: sual düşündürücü olmalıdır, çaşdırıcı yox”.

### “ZƏNNİMCƏ, BURADA DA ŞAGİRDƏ HAQSIZLIQ EDİRİK”

G.Əkbərova bildirir ki, şagird və valideynin imtahanlarda hiss etdiyi çətinlik tam realdır. Xüsusilə proqramla suallar arasında uyğunluq zəif hiss olunanda bu narahatlıq artır: “Abituriyentin qəbul proqramı MİQ və sertifikasiyadan çox fərqlənmir, zənnimcə, burada da şagirdə haqsızlıq edirik”. İŞ üzvü son vaxtlar ən çox müzakirə olunan və narahatlıq yaradan məsələyə - zonalar üzrə fərqli vaxtlarda keçirilən buraxılış imtahanlarına da diqqət çəkdi: “Şagirdlər arasında “kimin daha üstün şəraitdə imtahan verdiyi” ilə bağlı müqayisələr qaçılmaz olur. Vaxt fərqi həm psixoloji hazırlığa, həm də məlumat dövriyyəsinə təsir edə bilər. Dünyada da bu problem tam həll olunmuş deyil. Bu baxımdan, bizdə də əsas məsələ sualların standartlaşdırılması və bərabərliyinə maksimum zəmanət verilməsi olmalıdır. Ümumilikdə məncə, burada ən doğru yanaşma qarşıdurma yox, balansdır”.

## “Əgər 30 sualdan 25-i və ya daha çoxu çətindirsə...”

Tarix müəllimi Səxavət Zeynalovun fikrincə, imtahan sualları artıq neçə ildir ki, çətindir: “Suallar söz oyunu kimi qurulur və bəzən şagird başa düşmədiyi üçün cavabı səhv yazır. Sözsüz ki, məntiqi düşüncə yoxlanılmalıdır, ancaq bu, şagirdi çaşdırmağa yönəlməməlidir. İmtahandan öncə sualların çaşdırıcı olub-olmaması da yoxlanılmalıdır. Əgər 30 sualdan 25-i və ya daha çoxu çətindirsə, bu, problem yaradacaq”.

Ekspert hesab edir ki, abituriyentlər üçün tərtib edilən proqramlar çox ağırdır: “Son illərə qədər bəlkə də, şagird bu proqramlarla bacara bilirdi. Amma indiki texnoloji dövrdə müəllimlər şagirdləri oxutmaqda çətinlik çəkirlər. Nəticədə şagirdlərin çoxu xarici ölkələrin daha asan proqramlarına yönəlirlər”. S.Zeynalovun sözlərinə görə, bu il xüsusilə, Azərbaycan dili və riyaziyyat fənlərindən olan suallar çətin və vaxt aparan olub. Ekspertin fikrincə, mövcud problemlərin həlli üçün konkret müzakirələr aparılmalıdır: “Ölkədə sanki, hər kəs “necə çətin sual hazırlaya bilərəm?” yarışına girir”.

### “SUALLAR SADƏ, AYDIN, TƏTBİQ VƏ ANALİZ YÖNÜMLÜ OLMALIDIR”

Quba rayonu Rəhman Məmmədov adına Alekseyevka kənd tam orta məktəbin müəllimi Səbinə Heybətova mövzuya övladı buraxılış imtahanı verən valideyn kimi münasibət bildirir: “İmtahanlar üçün “ən çox səhv aşkarlayan” yox, “ən düzgün ölçən” suallar hazırlanmalıdır. Suallar “tələ” xarakterli deyil, sadə, aydın, tətbiq və analiz yönümlü olmalıdır. Hər sual konkret bir bacarığı ölçməlidir. İmtahandan əvvəl suallar pilot qruplarda yoxlanılmalı, testlərdə asan-orta-çətin balansı qorunmalıdır. Çətin suallar azlıq təşkil etməli və seçici rol oynamalıdır. Suallar birbaşa kurikuluma əsaslanmalıdır. Dərslikdən kənar qeyri-standart və dolaşıq məzmun minimuma endirilməlidir”. S.Heybətovanın fikrincə, aktiv müəllimlər imtahan suallarının hazırlanmasına və ekspertizasına cəlb olunmalıdırlar: “Real sinif təcrübəsi sual keyfiyyətini artırır”.

### “İLK NÖVBƏDƏ UŞAQLARI MƏKTƏBƏ QAYTARMAQ LAZIMDIR”

Təhsil eksperti İlham Əhmədov buraxılış imtahanlarında narazılıqların hər il təkrarlandığını bildirir: “Biz hər dəfə suallara baxmalı deyilik. Prinsipial məsələlər həll edilməli, ümumi qaydalar olmalıdır. Bunun üçün Dövlət İmtahan Mərkəzi (DİM) və ETN birgə fəaliyyət göstərməlidir”.

Ekspertin fikrincə, suallar orta çətinlikdə tərtib edilməli, şagirdləri stresə salmamalıdır: “Bu, olimpiada deyil, imtahanda standart biliklərin və bacarıqların standart yollarla yoxlanılması olmalıdır. İlk növbədə uşaqları məktəbə qaytarmaq lazımdır. Repetitor təhsili uşaqları psixi, fiziki, fizioloji cəhətdən, validenləri isə maddi cəhətdən əldən salıb. Bunun heç kimə xeyri yoxdur. Bu, təhsil deyil”.



Səxavət Zeynalov
Günay Əkbərova
İlham Əhmədov

# CƏRİMƏ, HƏBS VƏ SOSİAL TƏDBİRLƏR



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

**Qanunvericilikdə dilənçilik fəaliyyətinin qarşısının alınması, yaxud məhdudlaşdırılması ilə bağlı yeni cərimələr və cəzalar nəzərdə tutulub. Lakin ekspertlər yalnız cərimələr tətbiq etməklə bu fəaliyyətin tamamilə ləğvini mümkünsüz hesab edirlər.**

Azərbaycanda dilənçiliklə məşğul olmağa görə sanksiya, cərimə və həbs cəzaları tətbiq ediləcək. Bununla bağlı İnzibati Xətalar Məcəlləsinə yeni maddənin əlavə edilməsi təklif olunur. Layihəyə əsasən, dilənçiliklə məşğul olan şəxslərə xəbərdarlıq ediləcək, yaxud 100-200 manatadək cərimə tətbiq olunacaq. İşin halları və pozuntu törədənin şəxsiyyəti nəzərə alınmaqla, bu tədbirlərin kifayət etmədiyi hallarda 10 günədək inzibati həbs tətbiq ediləcək. Yetkinlik yaşına çatmayan şəxslərin dilənçiliyə cəlb edilməsinə görə isə 200-500 manatadək cərimə və ya işin halları və pozuntu törədənin şəxsiyyəti nəzərə alınmaqla, bu tədbirlərin kifayət etmədiyi hallarda 15 günədək inzibati həbs nəzərdə tutulur.

### "CƏZA MEXANİZMLƏRİ İLƏ DİLƏNÇİLİYİN AZALMASINA NAİL OLMAQ REAL DEYİL"

Hüquqşünas Şəbnəm Mirələmli "Kaspi"yə bildirdi ki, İnzibati Xətalar Məcəlləsinə dilənçiliklə bağlı yeni maddənin əlavə olunması avtomatik olaraq bu fəaliyyətin tam qadağan edilməsi demək deyil: "Bu cür dəyişikliklər adətən davranışın tənzimlənməsinə, müəyyən hallarda isə məhdudlaşdırılmasına yönəlir. Yəni qanunverici daha çox ictimai asayişi qorumağı, vətəndaşların rahatlığını təmin etməyi və bəzi hallarda insanların istismarının qarşısını almağı hədəfləyir. Təklif olunan maddə dilənçiliyə görə inzibati məsuliyyət nəzərdə tutursa, bu, faktiki olaraq həmin fəaliyyətin müəyyən formalarının İnzibati Xətalar Məcəlləsi çərçivəsində inzibati tənbeh tədbirləri vasitəsilə tənzimlənməsi deməkdir. Amma bu, o demək deyil ki, dilənçilik tam aradan qalxacaq. Çünki dilənçilik təkcə hüquqi məsələ deyil, eyni zamanda sosial-iqtisadi problemdir. Praktiki baxımdan, dilənçiliyin tam qadağan olunmasının həyata keçirilməsi kifayət qədər çətindir. Bunun bir neçə səbəbi var. Birincisi, dilənçilik çox vaxt yoxsulluq, işsizlik və sosial müdafiə mexanizmlərinin yetərsizliyi ilə bağlı olur. Bu problemlər həll olunmadan yalnız cərimə və ya inzibati tədbirlərlə nəticə əldə etmək mümkün deyil. İkincisi, bəzi hallarda dilənçilik arxasında təşkil olunmuş qruplar və ya insan alveri elementləri dayanır ki, bu da cinayət hüququ müstəvisində mübarizə tələb edir".

Hüquqşünas bildirir ki, inzibati həbs və cərimə müəyyən çəkindirici təsir göstərə və qısamüddətli azalma yarada bilər: "Təkcə cəza mexanizmləri ilə dilənçiliyin əhəmiyyətli şəkildə azalmasına nail olmaq real deyil".




## YENİ MADDƏ ÜÇÜN ZƏRURİ ŞƏRT

Hüquqşünas bildirir ki, məcəllədə yeni maddənin nəzərdə tutulması zamanı onun mövcud qanunvericilik sistemi ilə uyğunlaşdırılması zəruridir: "Təklif olunan maddə İnzibati Xətalar Məcəlləsinin ümumi prinsiplərinə, xüsusilə inzibati məsuliyyətin əsaslarına, proporsionallığına və hüquqi müəyyənlik tələbinə uyğun olmalıdır. Eyni zamanda, norma Konstitusiya ilə təmin olunan əsas hüquq və azadlıqlara ziddiyyət təşkil etməməlidir. Bundan əlavə, yeni maddə sosial müdafiə, uşaq hüquqları və insan alverinə qarşı mübarizə sahəsində qüvvədə olan digər normativ aktlarla sistemli şəkildə uzlaşdırılmalıdır".

## "İnternet dilənçiliyi" və ciddi cəzalar

Ş.Mirələmli vurğuladı ki, Birləşmiş Ərəb Əmirlikləri və İordaniya kimi ölkələr "internet dilənçiliyi" də daxil olmaqla bəzi formaları qadağan edərək ciddi inzibati tənbeh və cəzalar müəyyən ediblər: "Bu ölkələrdə cərimələr, hətta azadlıqdan məhrumetmə kimi sərt cəzalar tətbiq edilir. Azərbaycandakı təkliflər bir sıra ölkələrin inzibati tənzimləmə yanaşmalarına oxşardır. Lakin beynəlxalq praktika göstərir ki, yalnız tənbeh və cəza mexanizmləri ilə problemi həll etmək geniş tətbiq olunan model deyil".



Şəbnəm Mirələmli

Bahar Həsənli

## Risk qrupuna daxil olan uşaqlara sosial nəzarət

Yetkinlik yaşına çatmayan şəxslərin dilənçiliyə cəlb edilməsinə gəldikdə, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Uşaq məsələləri şöbəsinin əməkdaşı Bahar Həsənli bildirib ki, uşaqların bu fəaliyyətə cəlb olunmasının qarşısını almaq məqsədilə kompleks və çoxşaxəli tədbirlər həyata keçirilir: "İlk növbədə risk qrupuna daxil olan, çətin həyat şəraitində yaşayan və küçə həyatına məruz qalma ehtimalı yüksək olan uşaqlar müəyyən edilir. Bu proses digər aidiyyəti dövlət qurumları ilə koordinasiyalı şəkildə aparılır və əldə olunan məlumatlar əsasında həmin uşaqlar üzərində sosial nəzarət gücləndirilir. Xüsusilə, küçə həyatına məruz qalan uşaqlar aşkar edilərək təhlükəsiz mühitə yönləndirilir, sosial xidmətlərə cəlb olunur və hüquqları bərpa edilir. Eyni zamanda, komitə tərəfindən ictimai maarifləndirmə işlərinə də xüsusi önəm verilir. Valideynlər və uşaqlar üçün maarifləndirici materiallar hazırlanır və əhalinin sıx toplaşdığı məkanlarda yerləşdirilir".

### UŞAQLARIN DİLƏNÇİLİYƏ CƏLB OLUNMASINDA ƏSAS SƏBƏBLƏR

Komitə rəsmisi bildirir ki, valideyn, qəyyum və ya himayədar tərəfindən uşaqların dilənçiliyə cəlb olunması halları aşkar edildikdə, məsələyə operativ və kompleks yanaşma tətbiq edirlər: "Təcrübə göstərir ki, bu kimi halların əksəriyyəti valideyn məsuliyyətsizliyi və ya bəzi hallarda uşaqların qəsdən küçə həyatına yönəldirilməsi ilə bağlı olur. Belə hallarda digər aidiyyəti dövlət qurumları ilə əməkdaşlıq çərçivəsində fəaliyyət göstəririk. İlk mərhələdə uşağın hüquqlarının pozulub-pozulmadığının müəyyən edilməsi üçün hərtərəfli araşdırma aparılır. Eyni zamanda uşağın şəxsiyyətini təsdiq edən sənədlərin mövcudluğu və ümumi sosial vəziyyəti də yoxlanılır. Araşdırmalar nəticəsində uşağın həyat və sağlamlığına, habelə mənəvi inkişafına təhlükə yaradan hallar müəyyən edildiyi təqdirdə, qüvvədə olan qanunvericiliyə, o cümlədən Ailə Məcəlləsinin 72-ci maddəsinə uyğun olaraq uşağın ailədən götürülməsi məsələsinə baxılır. Bu proses yalnız uşağın mənafeyinin qorunması prinsipi əsasında həyata keçirilir və müvafiq sosial xidmət müəssisələrinə yerləşdirilir".

# RƏFLƏRDƏ QALAN YERLİ ŞİRƏLƏR

**Yerli şirə və konserv sektoru böhran içindədir. İstehsal və ehtiyatlar sürətlə azalır. Alıcılar artıq bahalı xarici məhsullara üstünlük verirlər. Markalarımızın rəqabətdə uduzma səbəbləri kimi zəif reklam, ixrac fokuslu keyfiyyət bölgüsü və istehlakçı inamının itirilməsi göstərilir.**



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Bu ilin yanvar-fevral aylarında Azərbaycanda 589,1 min dekalitr meyvə şirəsi istehsal edilib ki, bu da 2025-ci ilin eyni dövrü ilə müqayisədə 15,2% azdır. Rəsmi statistika təkcə istehsalda deyil, ehtiyatlarda da ciddi azalmanı göstərir. Bu il martın 1-nə ölkədə 797,9 min dekalitr meyvə şirəsi və 18 min 247,8 ton meyvə-tərəvəz konservləri ehtiyatı yaranıb. Bu rəqəmlər illik müqayisədə müvafiq olaraq 11,6% və 9,3% azalma deməkdir. Müstəqillik illərində bu sektorda sıçrayışlı inkişaf var idi və bazarda bir neçə yerli şirkət təşəbbüsü tamamilə ələ almışdı. Lakin son vaxtlar vəziyyət kəskin dəyişib. Bazara xarici markaların axını başlayıb və yerli istehsal səssizcə mövqelərini itirməkdədir. O zaman sual yaranır: yerli markalar xarici rəqiblərinə uduzurlar? Yerli şirkətlərin qorunması üçün hansı addımların atılmasına ehtiyac var?

### REKLAM VƏ MARKETİNQ ZƏİFLİYİ

İqtisadçı Rauf Qarayevin sözlərinə görə, Azərbaycan bazarında digər ölkələrdən gələn meyvə şirələrinin nisbətən ucuz olmasının və yerli məhsulların rəqabətdə uduzmasının müəyyən səbəbləri var: "Əsas səbəblərdən biri inamla bağlıdır. Məsələn, yanvar ayında bəzi yerli karton qablaşdırmalı şirələrdə mənşəyi məlum olmayan maddələr aşkar olunmuşdu. Nəticədə, istehlakçılar ümumilikdə Azərbaycanda istehsal olunan şirələri almaqdan ehtiyat edirlər. Daxili bazara təsir edən digər ciddi amil isə istehsal keyfiyyətidir. Yerli şirələrin dadı çox vaxt qutunun üzərində qeyd olunan meyvənin dadına belə uyğun gəlmir, sadəcə müəyyən əlavələrdən ibarət olur. Bu cür hallar istər məhsulun anbarda düzgün saxlanılmaması, istərsə də istehsal xətası səbəbindən olsun, ciddi antireklama səbəb olurdu. Nəticədə, ad qazanmış zavodların belə reputasiyası zədələnir və istehlakçılar həmin markaları boykot edirdilər. Əvvəllər yerli konserv zavodları reklama daha çox vəsait ayırırdısa, hazırda bu büdcələr də nisbətən azalıb. Yerli məhsulların xarici meyvə şirələrinə uduzmasının bir səbəbi də məhz reklam və marketinq zəifliyidir".

### KEYFİYYƏTLİ ŞİRƏLƏR XARİCƏ SATILIR?

R.Qarayevin fikrincə, Azərbaycanda istehsal olunan yüksək keyfiyyətli meyvə şirələri əsasən xarici ölkələrə ixrac olunur. Daxili bazarın tələbatını ödəmək üçün qalan məhsullar isə keyfiyyət baxımından xaricdən gələn şirələrə uduzur: "Bildiyiniz kimi, hər bir ölkənin öz standartları var. Xarici şirkətlər ixrac üçün nəzərdə tutduqları məhsullarda keyfiyyətə və qablaşdırmaya xüsusi önəm verirlər. Marketlərdəki xarici meyvə şirələrinə diqqət yetirsək, onların həm dizayn, həm də dad baxımından istehlakçıya daha cəlbedici və fərqli gəldiyini görərik. Bizdə isə xarici bazara göndərilənlər istisna olmaqla, ənənəvi olaraq eyni formada və standart dadda şirələr istehsal olunur. Əgər yerli məhsul keyfiyyətli deyilsə, rəflərdə qalacaq. Hətta yerli məhsullara davamlı endirimlər edilsə belə, keyfiyyət amilinə görə onların alıcı kütləsi kifayət qədər olmur. Marketinq psixologiyası və sahibkarların yanaşması mütləq dəyişməlidir".

### "DAXİLİ TƏHLİL APARMALIDIRLAR"

İqtisadçı bildirdi ki, yerli istehsalçıların rəqabət qabiliyyətini artırmaq ilk növbədə onların özlərindən asılıdır: "Onlar bazarı dərindən təhlil edərək keyfiyyətli məhsul ortaya qoymalıdırlar. Əgər istehsal prosesində onlara mane olan qanunvericilik və ya xərc məsələləri varsa, bunu dövlət qurumları qarşısında qaldıraraq vergi, kommunal güzəştlər tələb edə bilərlər. İstehsalçılar əvvəlcə yüksək keyfiyyətli məhsul yaradaraq özlərini sübut etməli, daha sonra hökumətdən güzəştlər tələb etməlidirlər. Bu sektorun yenidən yüksəlməsi üçün istehsalçılar mütləq daxili təhlil aparmalı, öz zəif tərəflərini müəyyənləşdirməli və buraxdıqları səhvləri aradan qaldırmalıdırlar".

### "PREMİUM ŞİRƏLƏR YOXDUR"

Marketoloq Qələndər Məmmədli isə düşünür ki, artıq yerli şirkətlər kommunikasiya və tanıtım kampaniyalarına əvvəlki qədər büdcə ayırmırlar: "Bunun əvəzinə, əsas diqqət distribusiya fəaliyyətinə, məhsulun rəflərdə yer almasına yönəldilib. Başqa sözlə, məhsulun fiziki mövcudluğu ön plandadır, lakin istehlakçı ilə kommunikasiya arxa plana keçib. Yerli brendləri dəyərləndirərkən görürük ki, onlar əsasən kütləvi mediadan istifadə edərək geniş auditoriyaya xitab etməyə üstünlük verirlər. Təəssüf ki, dar çərçivəyə və ya premium seqmentə yönəlmiş yerli meyvə şirələri bazarda demək olar ki, yoxdur. Əvvəllər mövcud olan bəzi markalar isə artıq fəaliyyətini dayandırıb".



Rauf Qarayev







Qələndər Məmmədli

## "SAĞLAM HƏYAT TRENDİ DƏ BU SEKTORA CİDDİ TƏSİR EDİB"

Q.Məmmədlinin fikrincə, bütün bunların fonunda istehlakçıların zehnində belə bir stereotip formalaşıb ki, yerli məhsul ucuz və keyfiyyətsizdir, xarici məhsul isə bahalı və keyfiyyətlidir: "Halbuki, xarici məhsulun qiymətinin yüksək olması əksər hallarda onun daşıma və gömrük xərcləri ilə bağlıdır. Hətta yerli məhsul eyni keyfiyyətdə olsa və bazara daha münasib qiymətə daxil olsa belə, alıcı psixologiyası bahalı xarici məhsulu daha etibarlı hesab edir. Son dövrlərdə vüsət alan sağlam həyat trendi də bu sektora ciddi təsir edib. İnsanlar artıq meyvə şirələrindən imtina edərək daha çox adi su içməyə üstünlük verirlər. Bu dəyişiklik brendlərin bazar payına mənfi təsir göstərsə də, ən böyük problem yerli şirkətlərin yeni trendə uyğun alternativ məhsullar təklif edə bilməməsidir. Kütləvi istehsal ənənəsinə davam etmək şirkətləri çətin vəziyyətlə üz-üzə qoyur".

### "MARKALAR RƏQABƏTƏ DAVAMLI OLMALIDIR"

Marketoloqun sözlərinə görə, hökumətin requlyativ addımları nəticəsində xarici brendlərin qiymətləri müəyyən çərçivədə tənzimlənir. Lakin yalnız daxili bazarı qorumağa yönəlmiş proteksionist siyasət çıxış yolu deyil: "Yerli markaları xarici rəqabətdən süni şəkildə qorumaq qısamüddətli perspektivdə müsbət effekt verə bilər, amma orta və uzunmüddətli dövrdə uğurlu nəticə vəd etmir. Bunun əvəzinə, dövlət yerli brendlərin ixrac potensialını dəstəkləməlidir. Əsas hədəf yerli istehsalı sadəcə qorumaq yox, onu qlobal miqyasda rəqabətədavamlı etmək olmalıdır".

“SMART CUSTOMS”DA FİN KOD VƏ PAROLLA BƏYANNAMƏ TƏSDİQİ DÖVRÜ BİTİR

# ELEKTRON TİCARƏTDƏ YENİ QAYDA

2026-cı ilin iyunundan etibarən elektron ticarət bəyannamələrinin FİN və parol vasitəsilə təqdim edilməsi dayandırılır. Mütəxəssislər bu addımın əsas səbəbləri kimi kibertəhlükəsizlik risklərini, sui-istifadə hallarını və hüquqi məsuliyyət mexanizminin gücləndirilməsini göstərirlər.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az




2026-cı ilin iyun ayının 1-dən etibarən elektron ticarət bəyannamələrinin təqdim edilmə qaydası dəyişir. Sözügedən tarixdən vətəndaşlar xaricdən alınan bağlamaları bəyan edərkən, identifikasiya nömrəsi (FİN kod və parol) ilə sistemə daxil olmaq kifayət etməyəcək və xidmət yalnız elektron imza vasitəsilə əlçatan olacaq.

Bununla bağlı Dövlət Gömrük Komitəsi vətəndaşlara xəbərdarlıq göndərib. Bildirilir ki, xidmətdən istifadə etmək üçün vətəndaşlar Asan İmza, SİMA və ya MYGOV/QR vasitəsilə sistemə daxil olmalıdırlar.

Hazırda xaricdən bağlamalar sifariş etdikdə vətəndaşlar e.customs.gov.az saytına və ya “Smart Customs” mobil tətbiqinə FİN kodu və parol ilə daxil olur, bağlamaya aid məlumatları doldurur və bəyannaməni təsdiqləyirlər. Mətbuatda “Bu il iyunun 1-dən etibarən identifikasiya nömrəsi ilə elektron ticarət bəyannamələri yazmaq mümkün olmayacaq” başlıqlı xəbərlər bəzi vətəndaşlar arasında çaşqınlıq yaradıb, bundan sonra xaricdən mal sifariş etməyin çətin olacağından narahatdırlar. Üstəlik, son zamanlar xaricdən sifariş edilən məhsulların gömrükdə saxlanılması ilə bağlı xəbərlərin fonunda bu qayda elektron ticarət həvəskarlarını təşvişə salıb.

Maraqlıdır, bu yeniliyin tətbiq edilməsi zərurəti haradan qaynaqlanır?

İNFORMASİYA KOMMUNİKASİYA TEXNOLOGİYALARI AGENTLİYİ

### “SİMA-NIN TƏTBİQİ XÜSUSİ TEXNİKİ BİLİK TƏLƏB ETMİR”

İnformasiya Kommunikasiya Texnologiyaları Agentliyindən “Kaspi” qəzetinə bildirilib ki, bu dəyişikliklər çərçivəsində vətəndaşların elektron xidmətlərdən daha təhlükəsiz və rahat istifadə etməsi məqsədilə yeni identifikasiya vasitələrinə keçid həyata keçirilir: “Bu baxımdan, vətəndaşlarımızı məlumatlandırmaq, maarifləndirmək və prosesə hazırlamaq məqsədilə bildiririk ki, 1 iyun 2026-cı il tarixinədək hər bir istifadəçi SİMA rəqəmsal imzanı smart mobil cihazına yükləməli və ondan istifadə qaydaları ilə tanış olmalıdır. Qeyd etmək istərdik ki, SİMA gündəlik istifadə üçün nəzərdə tutulmuş, sadə və təhlükəsiz identifikasiya vasitəsidir. Onun tətbiqi xüsusi texniki bilik tələb etmir. Bir daha vətəndaşlarımızı Dövlət Gömrük Komitəsi tərəfindən həyata keçirilən bu zəruri və mütərəqqi dəyişikliyə anlayışla yanaşmağa və vaxtında hazırlıq görməyə çağırırıq”.

### “SƏHV VƏ SAXTALAŞDIRMANIN QARŞISI ALINIR”

Dövlət Gömrük Komitəsinin açıqlamasına görə, dəyişiklik xidmətin təhlükəsizliyini artırmaq, əməliyyatların düzgün və sürətli həyata keçirilməsini təmin etmək və vətəndaşların elektron imza vasitəsilə daha etibarlı giriş imkanına malik olmalarını təmin etmək məqsədi daşıyır. Başqa sözlə, məqsəd həm xidmətin rəqəmsal təhlükəsizliyini gücləndirmək, həm də bağlamaların bəyan edilməsində səhv və saxtalaşdırmanın qarşısını almaqdır.

İKT üzrə ekspert Asim Namazov “Kaspi” qəzetinə açıqlamasında bildirdi ki, elektron ticarət bəyannamələrinin FİN və parol vasitəsilə deyil, yalnız gücləndirilmiş elektron identifikasiya üsulları - Asan imza, SİMA və MYGOV/QR üzərindən həyata keçirilməsi dövlətin rəqəmsal təhlükəsizlik və etibarlılıq siyasətinin məntiqi davamıdır: “Bu dəyişiklik ilk növbədə istifadəçi identifikasiyasının daha güclü və etibarlı mexanizmlərlə təmin olunmasına, eyni zamanda elektron ticarət əməliyyatlarında saxtakarlıq, üçüncü şəxslərin müdaxiləsi və məlumat sızması risklərinin azaldılmasına xidmət edir”.

## “İmza sahibinin məsuliyyəti dəqiq müəyyən edilir”

Mütəxəssis bildirir ki, digər mühüm məqam ondan ibarətdir ki, Asan imza və SİMA kimi həllər hüquqi baxımdan imza sahibinin məsuliyyətini dəqiq müəyyən edir: “Bu isə gömrük bəyannamələrinin hüquqi qüvvəsini gücləndirir və mübahisəli halların sayını azaldır. Xüsusilə elektron ticarətin sürətlə artdığı bir dövrdə bu, sistemin dayanıqlığı üçün vacib amildir. Bununla yanaşı, keçid dövründə vətəndaşların və kiçik sahibkarların məlumatlandırılması və adaptasiyası xüsusi diqqət tələb edir. Texnologiya baxımından hazır olmayan istifadəçilər üçün bu dəyişiklik ilkin mərhələdə çətinlik yarada bilər. Odur ki, Dövlət Gömrük Komitəsinin indidən xəbərdarlıq etməsi və elektron imza əldə olunmasını tövsiyə etməsi düzgün və vaxtında atılmış addımdır”.


Asim Namazov

### VƏTƏNDAŞLAR GÖMRÜKDƏ GECİKMƏLƏRİN QARŞISINI ALMAQ ÜÇÜN...

A.Namazovun sözlərinə görə, bu addım gömrük xidmətlərinin daha təhlükəsiz, şəffaf və beynəlxalq standartlara uyğun şəkildə fəaliyyət göstərməsinə imkan yaradacaq. Vətəndaşlar isə gecikmələrin və texniki problemlərin qarşısını almaq üçün 2026-cı il iyunun 1-dən əvvəl müvafiq elektron imza vasitələrini əldə etməlidirlər.

Sosial şəbəkə hesablarında iddia olunur ki, dəyişikliklərin əsas səbəblərindən biri bəzi sahibkarların yaşlı insanların və ya qohumlarının FİN kodunu və şifrəsini əldə edərək onların adından külli miqdarda sifarişlər verməsidir. Bu hallarda məhsullar faktiki olaraq kommersiya məqsədilə alınsa da, fiziki şəxslərin adına rəsmiləşdirildiyi üçün müəyyən güzəştlərdən sui-istifadə edilir. Bu isə həm sistemdə şəffaflıq problemləri yaradır, həm də fərdi idxal limitlərinin aşılmasına səbəb olur. Yəni, iyundan etibarən, hər bir şəxs yalnız öz adına olan məhsulu bəyan edəcək.

Vətəndaşlara tövsiyə olunur ki, iyun ayına qədər Asan İmza və ya SİMA elektron imzasını əldə etsinlər ki, malların bəyan edilməsində hər hansı çətinlik yaranmasın. Bu, xüsusilə xaricdən tez-tez sifariş verən şəxslər üçün vacibdir.

LƏNKƏRAN-ASTARA İQTİSADİ RAYONU ZƏFƏRAN İSTEHSALINDA ƏSAS YÜKÜ ÜZƏRİNƏ GÖTÜRÜR

# "QIRMIZI QIZIL"IN XƏRİTƏSİ DƏYİŞİR

**Tarixən Azərbaycanda zəfəranın əsas ünvanı Bakı və Abşeron yarımadası sayılıb. Abşeron zəfəranı keyfiyyəti, ətri və rəngi ilə seçilib. Lakin 2021-2025-ci illəri əhatə edən rəsmi statistik rəqəmlərin təhlili göstərir ki, zəfəran xəritəmiz dəyişməkdədir.**

**SEVİNC ABBASOVA**

"Qırmızı qızıl" kimi parlayan zəfəran uzun illər Azərbaycanda təkcə kənd təsərrüfatı məhsulu deyil, həm də mədəni irsin, məişət ənənələrinin və milli mətbəxin ayrılmaz hissəsi olub. Tarixən bu məhsulun əsas ünvanı Bakı və Abşeron yarımadası sayılıb. Abşeron zəfəranı keyfiyyəti, ətri və rəngi ilə seçilib, ölkə daxilində, eləcə də regionda tanınıb. Lakin 2021-2025-ci illəri əhatə edən rəsmi statistik rəqəmlərin təhlili göstərir ki, bu tarixi üstünlük tədricən zəifləyir, Azərbaycanın zəfəran xəritəsi dəyişməkdədir.

### ƏKİN SAHƏLƏRİ ARTIR, AMMA...

"Kaspi"nin Dövlət Statistika Komitəsindən əldə etdiyi məlumatlara görə, 2021-ci ildə ölkə üzrə zəfəran əkini 68,3 hektar təşkil etdiyi halda, 2025-ci ildə bu göstərici 105,2 hektara yüksəlib. Bu artım zəfərana marağın yüksəldiyini göstərir. Lakin istehsal həcmləri eyni ardıcıllıqla artmayıb. 2021-ci ildə 754 kiloqram olan istehsal 2022-ci ildə 609 kiloqrama düşüb, 2024-cü ildə 795,4 kiloqrama yüksəlsə də, 2025-ci ildə yenidən 767,4 kiloqrama enib. Bu dalğalanma göstərir ki, zəfəran istehsalında əsas həlledici faktor təkcə əkin sahəsinin genişliyi deyil, torpağın vəziyyəti, aqrotexniki qulluq və uzunmüddətli yanaşmadır.

### TARİXİ ŞÖHRƏTDƏN STATİSTİK GERİLƏMƏYƏ

Tarixi mənbələr təsdiqləyir ki, Abşeron kəndlərində zəfəran ailə təsərrüfatları çərçivəsində, nəsildən-nəslə ötürülən biliklərlə becərilib. Məhz bu səbəbdən Abşeron zəfəranı xüsusi aroma və keyfiyyətə malik olub. Lakin hazırda bu ənənə ciddi təhlükə altındadır. Statistika göstərir ki, Abşeron-Xızı iqtisadi rayonunda zəfəran əkin sahəsi 2021–2025-ci illər ərzində dəyişməyərək 33 hektar səviyyəsində qalsa da, istehsal həcmləri kəskin şəkildə azalıb. 2021-ci ildə Abşeron rayonunda 27 kiloqram zəfəran istehsal edildiyi halda, 2025-ci ildə bu göstərici cəmi 6 kiloqrama düşüb. Bu, beş il ərzində təxminən 4,5 dəfə azalma deməkdir.

Bir zamanlar Bakı-Abşeron zəfəranı keyfiyyət etalonu sayıldığı halda, bu gün həmin ərazilər statistik cədvəldə yalnız simvolik göstəricilərlə təmsil olunur.





## ƏSAS PAY LƏNKƏRAN-ASTARA BÖLGƏSİNDƏDİR

Abşeronda müşahidə olunan geriləmə fonunda Lənkəran-Astara iqtisadi rayonu zəfəran istehsalında əsas yükü üzərinə götürür. 2021-ci ildə bu regionda 550 kiloqram zəfəran istehsal olunubsa, 2025-ci ildə bu göstərici 610 kiloqrama yüksəlib. Ölkə üzrə istehsal olunan zəfəranın təxminən 80 faizi məhz bu bölgənin payına düşür. Bu sabitlik regionun iqlim şəraiti, torpağın istirahət rejiminin qorunması və zəfəranın intensiv deyil, uyğun aqrotexniki qaydalarla becərilməsi ilə izah olunur.

Mərkəzi Aran iqtisadi rayonunda zəfəran istehsalı qeyri-sabit, lakin diqqətçəkən dinamika nümayiş etdirir. 2021-ci ildə 177 kiloqram olan istehsal 2023-cü ildə 24 kiloqrama düşüb, 2024-cü ildə isə 204 kiloqrama yüksəlib. 2025-ci ildə istehsal 143,4 kiloqram olub. Xüsusilə Ağdaş rayonunda 17 hektar əkin sahəsi və 128 kiloqram istehsal bu regionun gələcəkdə alternativ zəfəran mərkəzi ola biləcəyini göstərir.

### QİYMƏTLƏR DƏYİŞKƏNDİR

"Absheron Saffron" şirkətinin satış direktoru Tutu Bəkirqızı bildirir ki, ötən il məhsuldarlığın yüksək olacağını gözləsələr də, nəticə proqnozdan xeyli aşağı olub: "Əslində əkin sahəsi strateji olaraq genişləndirilmişdi. Amma hava şəraitinin mənfi təsiri nəticəsində 13 hektar sahədən yalnız 8 kq zəfəran yığıldı, halbuki əvvəlcədən 30 kq məhsul gözlənilirdi.

Hazırda müştərilərə beş fərqli məhsul təqdim edilir. Bunlar arasında qramlıq zəfəran, mürəbbələr, kompotlar, baxım məhsulları və zəfəranlı zeytun yağı yer alır. İxrac potensialı mövcuddur, lakin hazırda xarici bazarda aktiv müştəri yoxdur. Yalnız İtaliyada məhsullar bir dəfə tanıdılıb".



## BAHALI İNVESTİSİYA, RİSKLİ MƏHSUL

Bilgəhdə zəfəran becərilməsi ilə məşğul olan Rahib Vəliyev də son illər məhsuldarlığın azaldığını bildirir. Onun sözlərinə görə, əvvəllər kənd sakinləri bu sahəyə ciddi maraq göstərsələr də, indi vəziyyət dəyişib: "Bu il bizdə də məhsul zəif oldu. Məhsuldarlığın azalmasının əsas səbəblərindən biri iqlim dəyişikliyidir. Əvvəllər məhsuldarlıq dövrü mövsümün başlanğıcından 15–17 gün davam edirdi. İndi isə bu dövr 10 gündən də az çəkir. Mənim sahəm təxminən bir hektardır, amma cəmi 1 kiloqrama yaxın zəfəran topladım. Əvvəllər 2 kiloqramdan çox məhsul götürmək mümkün idi. Zəfəran iri sahə tələb edir, lakin əhalinin çoxunun yalnız 10–15 sot torpağı var. Ona görə də insanlar daha çox göyərti əkir və məhsulu 10–15 gün ərzində biçib satırlar. Zəfəran isə bir il gözləmək tələb edir. Mövsüm sonunda da bilmirsən məhsul olacaq, ya olmayacaq".

Rahib Vəliyev qeyd edir ki, zəfəran həm də ciddi maliyyə vəsaiti tələb edən sahədir: "Bir hektar sahə üçün soğan alınmasa, təxminən 4–5 min manat xərc çıxır. Soğan alınsa, xərclər daha da artır. Hazırda soğanın kilosu 17–18 manatdır və bir hektara 4–5 ton tələb olunur".

Həmsöhbətimiz deyir ki, satışla bağlı hər hansı problem yoxdur. Zəfəranı yerli şirkətlərdən biri ilə ortaq əkib və məhsulu da onlara satır.

### HƏR HEKTARA 440 MANAT SUBSİDİYA

Kənd Təsərrüfatı Nazirliyindən isə "Kaspi"nin sorğusuna cavab olaraq bildirilib ki, bitkiçiliyin müxtəlif istiqamətləri kimi zəfəran istehsalı da dövlət tərəfindən dəstəklənir, bu sahəyə subsidiya ayrılır: "Aqrar Subsidiya Şurasının son qərarına əsasən, zəfəran əkinlərinin hər hektarına görə fermerlərə 440 manat subsidiya verilir ki, bu da fermerin zəfəran yetişdirməyə sərf etdiyi xərcin bir hissəsinin dövlət tərəfindən qarşılanması deməkdir. Aqrar sahəyə dövlət dəstəyi tədbirləri zəfərançılığın inkişafına da müsbət təsir göstərir".

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
25 APREL ŞƏNBƏ 2026
www.kaspi

Azərbaycan cüdoçularının Avropa çempionatındakı çıxışını uğurlu hesab etmək olar. Komandamızın potensialı daha böyük uğurlar qazanmaq üçün yetərlidir. Xüsusilə Bakıda keçiriləcək dünya çempionatında bu potensialdan daha dolğun istifadə edilməsi üçün hazırlığın maksimum səviyyəyə çatdırılması vacibdir.



# BİR GÜMÜŞ, ÜÇ BÜRÜNC

Azərbaycan cüdoçuları 2026-cı ilin ilk böyük sınağında ölkəmizi layiqincə təmsil etdilər. Yapon döyüş sənətinin ustaları Avropa çempionatı çərçivəsində Tbilisi şəhərində tatami üzərinə çıxdılar. Komandamız qonşu ölkədən medallarla qayıtmağı bacardı.

### GÜRCÜSTANA YOLLANAN GENİŞ HEYƏT

Azərbaycan 16-19 aprel tarixlərində keçirilən yarışda 11 çəki dərəcəsində 15 cüdoçu (9 kişi, 6 qadın) ilə təmsil olundu. İlkin heyətdə yer alan Ruslan Paşayev zədə səbəbindən siyahıdan çıxarıldı və onu Turan Bayramov əvəzlədi.

Kişilərdən ibarət yığma baş məşqçi Riçard Trautman, məşqçilər Elxan Məmmədov, Elçin İsmayılov, Slavko Tekiç və Robert Kravçikin rəhbərliyi altında çıxış etdi. Bu heyətdə Balabəy Ağayev, Əhməd Yusifov, Turan Bayramov, Hidayət Heydərov, Zelim Tçkayev, Ömər Rəcəbli, Murad Fətiyev, Zelim Kotsoyev və Kənan Nəsibov yer almışdı.

Qadınlardan ibarət milli isə baş məşqçi Amina Abdellatif və məşqçi Saşa Herkenrat-Vimarın rəhbərliyi altında mübarizə apardı. Komandada Könül Əliyeva, Şəfəq Həmidova, Leyla Əliyeva, Gültac Məmmədəliyeva, Südabə Ağayeva və Madina Kaisinova çıxış etdilər.

## Ümumilikdə dörd medal

Komandamız mötəbər turniri ümumilikdə bir gümüş və üç bürünc olmaqla dörd medalla başa vurdu.

İlk yarış günündə iki bürünc medal qazanan cüdoçularımızdan -60 kq çəki dərəcəsində çıxış edən Əhməd Yusifov komanda yoldaşı Balabəy Ağayevi üstələyərək üçüncü oldu. -66 kq-da isə Turan Bayramov Rusiya təmsilçisi Abdullax Parçiyevi məğlub edərək fəxri kürsüyə yüksəldi.

Daha sonra -73 kq çəki dərəcəsində mübarizə aparan Olimpiya çempionu Hidayət Heydərov finala qədər irəlilədi. O, həlledici görüşdə gürcüstanlı Laşa Şavdatuaşviliyə məğlub olaraq gümüş medalla kifayətləndi. Komandamızın son medalını isə -81 kq-da Zelim Tçkayev qazandı. O, üçüncü yer uğrunda qarşılaşmada belçikalı Mattias Kasse üzərində qələbə qazanaraq bürünc medala sahib çıxdı.

## İdmançılarımıza qarşı hakim haqsızlıqları

Bürünc medal görüşündə komanda yoldaşı Əhməd Yusifova uduzaraq medalsız qalan Balabəy Ağayev əslində Avropa çempionatını daha yüksək nəticə ilə başa vurmağa layiq çıxış sərgilədi. Yarımfinala qədər rəqiblərini inamla üstələyən idmançımız bu mərhələdə yerli cüdoçu Giorgi Sardalaşvili ilə qarşılaşdı. 28 yaşlı Ağayev görüşün sonlarına yaxın yuko xalı ilə öndə olsa da, hakimlər rəqibin hərəkətini daha yüksək - vaza-ari kimi qiymətləndirdi və hesab dəyişdi. Azərbaycan Cüdo Federasiyası rəsmilərinin etirazından sonra vəziyyət videoda yenidən incələnsə də, qərar qüvvədə saxlanıldı. Qalan qısa zaman kəsiyində hesabı dəyişmək mümkün olmadı və görüş Sardalaşvilinin qələbəsi ilə başa çatdı.



Balabəy Ağayev

Hakim qərarları ilə bağlı müzakirələr bununla da bitmədi. Olimpiya çempionu Zelim Kotsoyev yarımfinalda niderlandlı Simeon Katarina ilə görüşdə qadağan olunmuş fəndə görə birbaşa “hansoku-make” alaraq bürünc medal şansını itirdi. Bu epizodla bağlı etirazlar da nəticəsiz qaldı. Halbuki, oxşar hallarda belə sərt qərarların nadir tətbiq edilməsi suallar doğurdu. Ümumilikdə, turnirin bəzi epizodlarında hakim qərarlarının birmənalı qarşılanmaması Azərbaycan komandasının nəticələrinə də təsirsiz ötüşmədi.

## Komandanın potensialı daha böyükdür

Azərbaycan cüdoçularının Avropa çempionatındakı çıxışını ümumilikdə uğurlu hesab etmək olar. Komanda bir gümüş və üç bürünc medal qazanaraq yaxşı nəticə göstərsə də, potensial baxımından daha yüksək nailiyyət, xüsusilə qızıl medal əldə etmək imkanı da real görünürdü.

Turnir boyu bəzi görüşlərdə xırda detallar, epizodik səhvlər və mübahisəli qərarlar yekun nəticələrə təsirsiz ötüşmədi. Ayrı-ayrı cüdoçuların çıxışında medal üçün yetərli səviyyə görünsə də, həlledici anlarda ya diqqət çatışmazlığı, ya da vəziyyətin doğru qiymətləndirilməməsi onların irəliləməsinə mane oldu. Bu baxımdan, bəzi çəkilərdə daha yaxşı nəticələrin mümkün olduğu açıq hiss olunurdu.

Bununla yanaşı, müasir cüdonun rəqabət səviyyəsinin son dərəcə artdığı da nəzərə alınmalıdır. Həm Avropada, həm də dünya miqyasında idmançılar yüksək hazırlıqla çıxış edir və hər bir səhv dərhal cəzalandırılır. Azərbaycan millisinin çıxışı isə göstərdi ki, komanda bu rəqabətdə geri qalmır və daim medal uğrunda mübarizə aparmaq gücündədir.

Ümumi mənzərə onu deməyə əsas verir ki, nəticə qənaətbəxş olsa da, potensial daha böyük uğurlar qazanmaq üçün yetərlidir. Qarşıdakı yarışlarda, xüsusilə Bakıda keçiriləcək dünya çempionatında bu potensialdan daha dolğun istifadə edilməsi üçün həm texniki, həm də psixoloji hazırlığın maksimum səviyyəyə çatdırılması vacibdir. Cüdoçularımız son illərdə böyük yarışlarda qazandıqları uğurlarla həm ölkənin idman nüfuzunu yüksəldiblər, həm də özlərinə olan gözləntiləri xeyli artırıblar. Artıq hər turnirdə onlardan yalnız medal deyil, daha yüksək - qızıl uğrunda mübarizə gözlənilir və bu da komandanın üzərinə əlavə məsuliyyət qoyur.